SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN NƏZDİNDƏ

SUMQAYIT DÖVLƏT TEXNİKİ KOLLECİ

Fənn: Dövlət büdcəsi

Büdcənin mahiyyətini açmaq üçün bu məsələyə aşağıdakı aspektdən yanaşmaq lazımdır:

büdcə-iqtisadi kateqoriya kimi;

büdcə maddi mənada;

büdcə-hüquqi kateqoriya kimi.

Bir il müddətinə tərtib edilən büdcə illik büdcə adlanır. Büdcə tərtib olunan ilə maliyyə ili deyilir. Azərbaycan Respublikasının büdcə qanunvericiliyinə uyğun olaraq maliyyə ili (büdcə ili) təqvim ili ilə üst-üstə düşür və yanvar ayının I-dən dekabr ayının 31-dək olan bir illik dövrü əhatə edir.

Büdcə iqtisadi kateqoriya kimi müxtəlif səviyyəli büdcə fondlarının yaradılması, bölüşdürülməsi və istifadə olunması ilə əlaqədar yaranan iqtisadi münasibətləri ifadə edir.

Maddi mənada büdcə dövlət və yerli hakimiyyət orqanlarının müvafiq vəzifə və funksiyalarının həyala keçirilməsini təşkil etmək üçün bu və ya digər səviyyələrdə mərkəzləşdirilmiş pul vəsaiti fondudur. Deməli, büdcənin mahiyyəti ilk növbədə onun maddiliyində ifadə olunur. Büdcənin gəlir və xərclərinin həcmi, onlann dəyişkən olması, büdcə kəsirinin həcmi və s. büdcənin maddi məna kəsb etməsini səciyyələndirir. Lakin büdcənin mahiyyətini təkcə maddi məna ilə deyil, həbclə onun gəlir və xərclərin formalaşdırılması ilə əlaqədar yaranan münasibətlərlə do müəyyən etmək lazımdır.

Hüquqi kateqoriya kİmi büdcə mövcud qanunvericiliklə müəyyən edilir, xüsusi qaydada işlənib hazırlanır və dövlət hakimiyyət orqanı tərəfindən qəbul olunur. Bu mənada büdcə dövlətin (və ya bələdiyyələrin) mərkəzləşdirilmiş pul vəsaiti fondlarının yaradılması, bölüşdürülməsi və istifadə olunması üzrə əsas maliyyə planı kimi başa düşülməlidir. Bu maliyyə planı büdcə münasibətləri iştirakçılarının hüquq və vəzifələrini özündə təsbit edir.

Bütün yuxanda sadalanan vəziyyətləri nəzərə almaqla büdcələrin bir neçə növünü müəyyən etmək olar. Bunlar aşağıdakılardır:

Adi büdcələr. Yəni iqtisadiyyatın nisbətən sabit və normal inkişafı şəraitdə qəbul olunan büdcələr;

Fövqəladə büdcə. Bu büdcə, ölkədə fövqəladə vəziyyət müəyyən olunması ilə əlaqədar olaraq, pul vəsaitlərinin xüsusi ağır istifadə rejimini nəzərdə tutan və bu halda qəbul edilən büdcədir;

Minimal büdcə. Bu cür büdcə yalnız ayrı-ayrı inzibati ərazi vahidləri səviyyəsində qəbul olan bilər. Məsələn, şəhər, rayon, kənd, qəsəbə büdcələrinin minimal xərc göstəriciləri nəzərdə tula bilər. Ən zəruri xərclərin maliyyələşdirilməsi müvafiq yuxarı hakimiyyət orqanı tərəfindən təmin olunur. Beləliklə, minimal büdcə anlayışı yerli büdcələrə münasibətdə tətbiq edilir.

Birləşmiş (vahid) büdcə. Mürəkkəb inzibati ərazi quruluşuna malik ölkələrdə belə büdcələr qəbul olunur. Məsələn, rayon bölgüsü olan şəhərlərin büdcələri həm şəhər, həm də rayonların büdcələrini özündə birləşdirir.

Büdcə iqtisadi kateqoya kimi maliyyə sisteminin tərkib hissəsidir, pul münasibətlərini təzahür etdirir və maliyyənin funksiyalarım özündə əks etdirir.

Dövlət büdcəsi öz maddi məzmununa görə dövlətin başlıca mərkəzləşmiş pul vəsaitləri fondudur. Yəni, dövlət büdcəsi müəyyən dövr ərzində (məsələn, bir il ərzində)

ölkədə geniş təkrar istehsalı təmin etmək, insanların maddi və mənəvi tələbatlannı, dövlətin zəruri ehtiyaclarını ödəmək üçün yaranan dövlətin mərkəzləşdirilmiş pul vəsaitləri fondudur.

Bazar iqtisadiyyatı şəraitində iqtisadi islahatların həyata keçirildiyi bir dövrdə büdcə vəsaitləri Azərbaycan Respublikasında iqtisadiyyatın yenidən qurulması, məqsədli proqramların həyala keçirilməsi, elmi-texniki tərəqqinin inkişaf etdirilməsi istiqamətlərinə yönəldilməlidir.







Büdcənin gəlirləri - Azərbaycan Respublikasının qanunvericiliyi əsasında dövlət hakimiyyət orqanlarının və yerli özünüidarəetmə orqanlarının sərəncamına vergilər, rüsumlar və yığımlar şəklində əvəzsiz (qaytarılmamaq şərtilə) daxil olan pul vəsaitləridir.

Büdcə gəlirlərinin yaranması prosesində ictimai istehsal sahələrində yaranan ÜDM-in br hissəsinin dövlətin xeyrinə məcburi ödənilməsi baş verir. Bununla dövlətlə vergi ödəyiciləri arasında qarşılıqlı maliyyə münasibətləri yaranır. Büdcənin gəlirləri ödəyicilərinə, vergitutma obyektlərinə, alınması metodlarına, ödəniş müddətinə və digər xüsusiyyətlərinə görə fərqləndirilir.

Büdcə gəlirləri vergi və vergi olmayan gəlirlər xarakteri daşıyır. Vergi gəlirlərinin əsas mənbəyini yenidən bölgü nəticəsində alınan (mənfəət, əmək haqqı, əlavə dəyər, ssuda vaizi, renta, dividenllər və s.) yeni yaradılmış dəyər, gəlirlər və yığım təşkil edir.

Büdcələrin vergi olmayan gəlirləri ya dövlət orqanlarının iqtisadi fəaliyyəti nəticəsində, ya da büdcə sisteminin səviyyələri üzrə alınmış gəlirlərin yenidən bölgüsü nəticəsində yaranır.

Büdcə xərcləri - dövlətin və yerli idarəetmə orqanla- nnın vəzifə və funksiyalarının həyata keçirilməsinin maliyyə təminatına yönəldilən pul vəsaitləridir.

Büdcə xərcləri «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununa və hər il qəbul edilmiş «Dövlət büdcəsi haqqında» AR-mn Qanununa müvafiq olaraq ayrı- ayrı təşkilatlar üzrə təsdiq olunmuş smetaya əsasən dövlət xəzinədarlıq orqanları vasitəsilə formalaşır.

Büdcə xərcləri bir çox hallarda transfer xarakter daşıyır. Büdcə xərclərinin məbləği maddələri üzrə müəyyənləşdirilir. Bundan başqa büdcə xərcləri hesabına büdcə vəsaitlərinin dotasiya, subsidiya, subvensiya və büdcə ssudalan vasitəsilə büdcə sisteminin səviyyələri üzrə yenidən bölgüsü baş verir. Büdcə xərcləri bu halda əsasən qaytarılmamaq prinsipi üzrə maliyyələşdirilir. Qaytarılmamaq şərtilə verilən vəsait eyni zamanda büdcə krediti və büdcə ssudalan da ola bilər.

İqtisadiyyatın tənzimlənməsi və stimullaşdırıiması funksiyası. Dövlət büdcəsi xərclər və gəlirlər sistemi, hər şeydən əvvəl isə vergilər sistemi vasitəsilə iqtisadiyyatın və investisiyanın tənzimlənməsi və həvəsləndirilməsinin, istehsalın səmərəliliyinin yüksəldilməsi aləti kimi çıxış edir. Dövlət büdcəsindən vəsait ayırmaq vasitəsilə sənayenin ayrı-ayrı üstün sahələrinə dövlət yardımı göstərilir.

Dövlət büdcəsi iqtisadiyyatda bölgü (yenidənbölgü) prosesinin təşkilatçısı kimi çıxış edir. Büdcə vasitəsilə müxtəlif mülkiyyət formalı müəssisələrə daxil olan gəlirlərin bir hissəsi məcburi ödənişlər, o cümlədən vergi ödənişləri şəklində yenidən bölüşdürülür. Beləliklə, dövlət büdcəsi müəssisələrin xalis gəlirinin həcminə təsir göstərir.

Sosial siyasətin maliyyə təminatı funksiyası. Büdcələrin sosial yönümliyi mühüm əhəmiyyət kəsb edir. Dövlət büdcəsi iş qüvvəsinin təkrar istehsalının elementidir. Ona görə ki, ondan səhiyyə və təhsil sferasının inkişafı və vəziyyəti xeyli dərəcədə asılıdır. Dövlət büdcəsi və.saitinin yardımı ilə sosial siyasətin daha üstün istiqamətlərinin, o cümlədən əhalinin daha az müdafiə olunan təbəqəsinin - pensiyaçıların, əlillərin, tələbələrin, az təminatlı və çoxuşaqh ailələrin müdafiəsi və habelə səhiyyə, təhsil və mədəniyyət idarələrinin fəaliyyətinin maliyyələşdirilməsi həyata keçirilir.

Nəzarət funksiyası. Yuxarıda sadalanan funksiyalardan başqa büdcənin nəzarət funksiyası da vardır. Nəzarət funksiyası vasitəsilə, dövlət büdcəsinin pul vəsaitləri fondlarının formalaşması və onlardan düzgün istifadə olunması prosesinə nəzarət olunur. Eyni zamanda ölkənin ayrı-ayn sahələrində müəyyən olunan çatışmamaziıq hallan nəzarət funksiyası vasitəsilə müəyyən olunur və onun aradan qaldırılması üçün konkret tədbirlər həyata keçirilir. Büdcə vəsaitlərinin istifadəsinə

nəzarət iki formada həyata keçirilir: parlament nəzarəti və inzibati nəzarət. Müvafiq orqanlar nəzarətin bu və ya digər formalarını həyata keçirirlər.

## DÖVLƏTİN BÜDCƏ SİYASƏTİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ.

Dövlət iqtisadiyyatı inkişaf etdirmək üçün iqtisadi siyasətin tərkib hissəsi olan maliyyə siyasətini həyata keçirməklə yanaşı, qarşıda duran bir sıra problemlərin həllini tapmağa çalışır. Bu problemləri həll etmək üçün dövlət bir sıra iqtisadi və inzibati qanunlar qəbul etməklə iqtisadi inkişafa zəmin yaradır. Bu qanunların əksəriyyəti öz əksini dövlətin əsas maliyyə planı olan dövlət büdcəsində tapır.

Dövlət öz funksiyalarını yerinə yetirmək üçün lazuni miqdarda maliyyə vəsaitini səfərbərliyə almalı vo istifadə etməlidir ki, bu da əsasən büdcə vasitəsilə həyata keçirilir. Büdcə mexanizmi vasitəsilə maliyyə vəsaitinin toplanması və istifadəsi zamanı dövlətlə hüquqi və fiziki şəxslər arasında müəyyən maliyyə münasibətləri əmələ gəlir. Həmin maliyyə münasibətləri dövlətin maliyyə -büdcə siyasəti vasitəsilə tənzimlənir.

Budcə siyasəti -hər bir konkret tarixi dövrdə cəmiyyətin idarə edilməsi, iqtisadi, sosial və siyasi vəzifələrin həyata keçirilməsi məqsədilə dövlətin mərkəzləşdirilmiş və qeyri- mərkəzİDşdirilmiş pul vəsaiti fondlarının yaradılması və məqsədəuyğun istifadəsi ilə əlaqədar olaraq həyata keçirdiyi tədbirlər sistemindən ibarətdir.

Dövlətin büdcə siyasəti Azərbaycan Respublikasının Konslitusiysı ilə, «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının qanunu ilə, ayrı-ayn hakimiyyət orqanlarının büdcə prosesi sahəsində funksiyalarını və səlahiyyətlərini ifadə edən digər qanunvericilik aktları ilə müəyyən edilir. Büdcə siyasətini yalnız büdcə prosesinə aid etmək olmaz. Büdcə siyasəti hər bir dövlət hakimiyyət orqanının büdcə prosesindəki funksiyalarını dəqiq müəyyən edir.

İqtisadi nəzəriyyəyə əsasən büdcə kəsininin örtülməsi üçün pul emissiyasından istifadə edərək, iqtisadi tarazlığa nail olmaq olar. Bazar iqtisadiyyatına keçid şəraitində büdcə siyasəti iqtisadi tarazlıqdan çox, tənəzzüllə nəticələnə bilər. Belə ki, pul kütləsini artırmaq, yalnız və yalınz qiymətlərin ümumi həcminin və normasının artması ilə nəticələnəcəkdir. Bu isə inflyasiya adlanan iqtisadi böhran deməkdir.

İqtisadi tarazlığın təmin edilməsində İstifadə oluna biləcək büdcə siyasətini bir neçə qrupa bölmək olar:

1) dövlət büdcəsi gəlirləri ilə xərclərinin bir-birinə uyğun olması;

2) dövlət xərclərinin vergilərlə təmin olunmaması vo ya pul emissiyasından istifadə edilməsi, borclanma;

3) toplanan vergilərin, xərclərdən çox olması və büdcə artıqlığı. Belə halda artıq vəsait dövlətin qızıl və valyuta ehtiyatlarının yaradılmasına yönəldilir.

Ənənəvi büdcə siyasətində dövlətin mövcud tarazlığı qoruyub saxlanması çox vacibdir. Əlbəttə, büdcə siyasəti işlənib hazırlanarkən ənənəvi büdcə siyasətinin tarazlıq cəhətindən istifadə edilməsi məqsədə uyğundur, amma ənənəvi büdcə siyasətindən istifadə edərək büdcənin formalaşdırılması müasir dövrdə yüksək nəticə verə bilməz. Büdcə siyasəti nəzəriyyələri tərkibində Keynsçi büdcə siyasətininin özünəməxsus xüsusiyyətləri olmuşdur.

Ənənəvi iqtisadi nəzəriyyənin (iqtisadiyyatın öz-özlüyündə tarazlığa gəlməsinin) mümkünsüzlüyü hələ l929-cu ildə sənayecə inkişaf etmiş ölkələrin timsalında öz sübutunu tapmışdır. Keyns bu sübutlardan dərhal sonra açıqladığı büdcə siyasəti nəzəriyyəsində əmək haqqı və qiymətlər elastik olsa da, iqtisadi mənbələrdən tam istifadə edə bilmək üçün maliyyə siyasəti tədbirlərinə, yəni dövlət büdcəsi xərclərinin artınimasına, vergilərin azaldılmasına və s. Ehtiyac olduğunu müəyyən etimşdir. Keyns həmçinin işsizliyin birbaşa büdcə siyasətinə böyük təsir göstərdiyini vurğu- lamışdır. Keyns göstərmişdir ki, məcmu tələb və təklif azlığını aradan qaldıran maliyyə siyasəti həyata keçirilməzsə surətlə artan işsizliyin aradan qaldırılması mümkün olmaz.

Keynsçi büdcə siyasəti iqtisadi təhlilə əsaslanır. Bu iqtisadi təhlilə görə iqtisadiyyatın istehsal və pul bölmələrinin bir-birindən asılı olmadığını söyləmək mümkün deyildir. Keynsə görə fərdlər yalnız öz yaşamaları üçün pul qazanmırlar, onlar digər məqsədləri üçün də pul qazanmağa çalışdıqlanndan faiz dərəcəsi (vergi faizi, kredit faizi və s.) vasitəsilə iqtisadiyyatın pul və istehsal bölmələri bir-birilə sıx əlaqəlidir. Keyns öz fərziyyələrində ənənəvi iqtisadi nəzəriyyədən çıxış edənlərin bəzi fərziyyələrinin əksinə və doğru olmadığını qeyd etmişdir. Bəzi iqtisadçıların fikirlərinə görə Keynsin büdcə siyasətinin zəif inkişaf etmiş ölkələrdə fəaliyyət göstərməsi mümkün deyildir.İqtisadçılar Keynsçi təhlilə əsaslanaraq məcmu lələb- dəki artımın istehsalı və bilavasitə məşğulluğu artıracağı və vəsait mənbələrinin tam istifadə olunmasını təmin edəcəyi fikirlərini söyləmişlər. Çünki, bu fikirlərin əsasında təklif şərtlərinin elastikliyi dayanır. İstehsal normasındakı azalma və bunun nəticəsində meydana çıxan işsizliyin səbəbi faydalı tələbin aşağı olmasıdır. Büdcə siyasəti büdcə kəsiri vasitəsilə məcmu tələbdəki bu azlığı qaydaya salır və iqtisadiyyatı tam məşğulluğa cəlb edir. Halbuki, zəif inkişaf etmiş ölkələrdə işsizliyin səbəbi məcmu tələbin aşağı səviyyədə olması deyil, iqtisadiyyatda mövcud investisiya bazannın hərəkələ gətirə biləcəyi əməyin həcmindəki artıqlığıdır. Yəni, zəif inkişaf etmiş ölkələrdə investisiya qoyuluşu və yaxud investisiya imkanları az, iş qüvvəsi isə həddən artıq çoxdur. Belə şəraitdə kəsirin maliyyələşdirilməsi ancaq məcmu tələbin artınimasına yol açır.

Fiskal siyasət dövlətin büdcə və vergi siyasəti olmaqla, büdcənin formalaşdırılması siyasətini ifadə edir və eyni zamanda maliyyə siyasətinin tərkib hissəsi sayılır.

Ümumiyyətlə, fiskal siyasət latınca «fısk» sözündən götürülmüşdür, tərcüməsi zənbil deməkdir. Qədim Romada ilk əvvəllər pulların saxlandığı kassa, sonralar imperatorların şəxsi xəzinəsi və nəhayət gəlir, vergi və digər rüsumlann cəmləşdiyi mərkəz «fısk» adlandırılmışdır. Fiskal siyasətin əsas istiqaməti dövlət xərclərinin maliyyələşdirilməsini təmin etmək üçün, ayrı-ayrı fiziki və hüquqi şəxslərin gəlirlərinin müəyyən hissəsinin dövlət büdcəsinə cəlb edilməsidir.

Bazar iqtisadiyyatına keçid dövründə, dövlətin həyala keçirdiyi büdcə siyasəti iqtisadiyyatda sabitliyi təmin etməklə, istehsalın stimullaşdırılması və iqtisadi, inzibati infrastrukturun təkmilləşdirilməsi üçün əsas iqtisadi siyasət rolunu oynayır. Keçid dövründə büdcə siyasəti büdcə gəlirlərinin artırılması və büdcə xərclərinin o, cümlədən idarəetmə xərclərinin azaldılmasına yönəldilir. Eyni zamanda büdcə strukturlarında aparılan ixtisarlar, büdcə siyasətinin və iqtisadi siyasətin tərkib hissəsini təşkil edir.

Azərbaycan Respublikasında dövlətin əsas iqtisadi siyasət strategiyasını ölkə prezidenti müəyyənləşdirir. Prezidentin təsdiq etdiyi fərmanlar ölkədə iqtisadiyyatın bazar iqtisadiyyatı yönümlü inkişafına şərait yaradır. İslahatlaşdırma və liberallaşdırma

bazasında sosial yönümlü iqtisadiyyatın yaradılması. sahibkarlıq fəaliyyətinin inkişafına meydan açılması, ölkənin dünya iqtisadi inteqrasiyasına qoşulması, idarəetmə sistemində ixtisarlar aparılaraq təkmilləşdirilməsi, iqtisadi artım və xalqın rifahının yüksəldilməsi iqtisadi siyasətin əsas istiqamətlərini təşkil elməklə, dövlət büdcəsinin təkmiiləşdirilməsinə təkan verir.

## MÜXTƏLİF TİPLİ DÖVLƏTLƏRDƏ BÜDCƏ QURUCULUĞUNUN ƏSASLARI.

Büdcə quruculuğu dedikdə büdcə qanunvericiliyinə müvafiq olaraq fəaliyyət göstərən büdcə sisteminin quruluşu, onun tərkibinə daxil olan büdcə həlqələrinin qarşılıqlı əlaqələrinin təşkili prinsipləri başa düşülür. Başqa sözlə büdcə quruculuğu büdcə sisteminin təşkilini, onun quruluşu prinsiplərini, ayrı- ayrı büdcə həlqələri arasında qarşılıqlı münasibətləri, büdcə sisteminə daxil olan büdcələrin fəaliyyətinin ləşkilati-hüquqi əsaslarını, büdcələrin tərkib və strukturunu, büdcə vəsaitlərinin yaradılması və istifadəsinin üsullarını müəyyən edir.

Büdcə sistemi-iqtisadi münasibətlərə və mövcud dövlət quruluşuna, iqtisadi sisteminə, onun iqtisadi ərazi bölgüsü əsaslanan və hüquqi normalar ilə tənzimlənən bütün büdcələrin, yəni dövlət büdcəsinin və yerli (bələdiyyə) büdcələrin məcmusudur. Başqa sözlə desək, büdcə sistemi bu və ya digər dövlətin ərazisində olan bütün büdcələrin vahid sistemə gətirilməsi deməkdir. Büdcə sistemi ali və yerli dövlət hakimiyyəti orqanlarının funksiyalarının icra olunmasının əsas maliyyə mənbəyi rolunu oynayır. Dövlət büdcə sistemi vasitəsilə maliyyə münasibətlərinin tənzimlənməsini həyata keçirir.

Ölkənin vahid büdcə sistemində birləşdirilən dövlət büdcəsinin və ayrı-ayrı müstəqil büdcələrin məcmusu həmin dövlətin büdcə sistemini təşkil edir. Bu halda büdcədənkənar dövlət fondları bu sistemə daxil edilmir. Büdcə sisteminin qurulması və ayrı-ayn həlqələri arasındakı qarşılıqlı maliyyə münasibətlərinin təşkili büdcə quruluşu adlanır.

Aynca götürülmüş hər bir dövlət büdcə quruculuğuna, təşkilati büdcə sisteminə və onun quruluş prinsiplərinə (yəni büdcə quruculuğuna) malikdir. Beləliklə, büdcə quruculuğu ölkənin dövlət quruluşu, burada fəaliyyət göstərən qanunvericilik aktları və büdcənin ictimai istehsalda rolu ilə müəyyən olunur.

Bazar münasibətlərinin fəaliyyət göstərdiyi ölkələrdə hakimiyyətin mərkəzlə inzibati-ərazi qurumları arasında bölgüsü dərəcəsi üzrə bütün dövlətlər unitar, federativ və konfederativ quruluşa malik dövlətlərə bölünür.

Unitar (vahid) dövlətlər - vahid dövlət olub, yalnız inzibati-ərazi vahidlərindən - vilayət, əyalət və quberniyalardan ibarətdir. Belə dövlətlərdə inzibati-ərazi qurumları xüsusi dövlətçiliyə və muxtariyyətə malik deyillər. Bu kimi unitar dövlətlərdə vahid konstitusiya, vahid hakimiyyət orqanı, iqtisadiyyatda və sosial sferada mərkəzləşdirilmiş idarəetmə sistemi fəaliyyət göstərir. Unitar dövlətlərdə iki idarəetmə həlqəsi olur: mərkəzi idarəetmə orqanları və yerli özünüidarəetmə orqanları.

İnkişaf etmiş ölkələrdə, məsələn Böyük Britaniya, Fransa Polşa və Rumıniya və s. kimi unitar dövlətlərdə büdcə sistemi iki pilləli büdcələrdən- dövlətin mərkəzləşdirilmiş büdcəsindən və yerli özünüidarəetmə orqanlarının, yerlibələdiyyələrin sərəncamında olan büdcələrdən ibarətdir. Unitar dövlətin büdcə sistemi bir və ya bir neçə həlqədən ibarət olsada əsas ağırlıq məhz mərkəzi hökümətin üzərinə düşür. Bir qayda olaraq əsas nəzarət funksiyasını mərkəzi hökümət həyata keçirir.

Federativ dövlət (birləşmiş) bir sıra dövlət qurumlarından-ştatlardan, respublikalardan və s. yaradılmış ittifaq dövlətidir. Federativ dövlətlərdə 3 idarəetmə həlqəsi olur: mərkəzi, federasiya subyektləri və yerli.

Federativ (birləşmiş) dövlətlərdə onun tərkibinə daxil olan inzibati-ərazi qurumları xüsusi dövlətçiliyə malikdir. Onlar mərkəz ilə inzibati-ərazi qurumları arasında bölüşdürülmüş səlahiyyətləri çərçivəsində müəyyən müstəqilliyə malikdirlər. Bu kimi federativ dövlətlər üçün üç pillədən ibarət olan büdcə quruculuğuna - dövlətin federal büdcəsi, inzibati-ərazi qurumlarının büdcələri və yerli büdcələr xarakterikdir. Federativ dövlətlərdə də federasiya üzvlərinin büdcələri də gəlir və xərcləri ilə federal büdcəyə daxil edilmir.

Federativ dövlət quruluşu olan ölkələrdə büdcə sistemi üç həlqədən: mərkəzi federal büdcədən, federasiyaya daxil olan subyektlərin büdcələrindən və yerli (bələdiyyə) büdcələrdən ibarətdir (məsələn, ABŞ-da, Rusiyada, AFR-da və s.) ABŞ-da büdcə sistemi -federal büdcə, ştatların büdcələri və 82 mindən çox inzibati ərazi vahidlərinin büdcələrini özündə birləşdirir. Almaniya Konstitusiyasına əsasən dövlət hakimiyyəti iki səviyyədən (zümrədən)- federativ respublika və federasiya üzvləri olan torpaqlardan (zemel) ibarətdir. İcmalar üçüncü dövlət səviyyəsi əmələ gətirməyərək, torpaqların bir hissəsi hesab edilir. Torpaqlar icmaların maliyyə vəziyyətinə daim nəzarət edirlər. Almaniyanın büdcə sistemi hazırda federasiya büdcəsindən, 16 min torpaq (zemel) büdcələrindən və 11 mindən çox icma büdcələrindən ibarətdir.

Konsalidasiya edilmiş büdcə - hesablama və təhlil üçün istifadə edilən dövlət və inzibati-ərazi qurumlarının büdcələrinin icmalıdır. Müstəqil büdcələrdən fərqli olaraq konsalidasiya edilmiş büdcələr təsdiq edilmir və hüquqi akt (sənəd) deyildir.

Konfederasiya - müəyyən məqsədlərə nail olmaq üçün yaradılmış dövlətlərin ittifaqıdır. Başqa sözlə konfederasiya - hökümətlərarası qürum tərəfindən məhdud funksiyaların icrası məqsədilə bir neçə dövlətin birləşməsidir. Konfederasiyada mərkəz bütün üzv dövlətorin agenti və ya vasitəçisi kimi çıxış edir. Konfederasiyaya üzv olan maliyyə vəsaitlərinin bölüşdürülməsi və üfüqi bərabərliyin tətbiqi qeyri - mümkündür.

Konfederativ (ittifaq) dövlət siyasi, iqtisadi və hərbi məqsədlərə nail olmaq üçün yaradılmış dövlətlərin daimi birliyin əsaslanır. Konfederativ dövlətlərin büdcələri konfederasiyaya daxil olan dövlətlərin üzvlük haqqları hesabına formalaşır. Bu dövlətlərin konfederasiya üzvlərinin öz büdcələri və vergi sistemi fəaliyyət göstərir. Buna Avropa Birliyi və İsveçrənin büdcəsini misal göstərmək olar.

## AZƏRBAYCAN RESPUBLİKASININ BÜDCƏ QURUCULUĞU VƏ BÜDCƏ SİSTEMİ.

Azərbaycan Respublikasının büdcə quruculuğu onun dövlət quruluşu ilə müəyyən edilir və AR-nın Konstitusiyası ilə təsbit edilir. AR-nın Konstitusiyanın 7-ci maddəsinə uyğun olaraq «Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır».

Azərbaycan Respublikası Naxçıvan MR-dan, respublika əhəmiyyətli şəhərlərdən, rayonlardan, qəsəbələrdən və kəndlərdən ibarətdir. Naxçıvan MR-sı AR-nın tərkib hissəsidir. Naxçıvan MR-nın öz Konstitusiyası və qanunları vardır və onlar AR-nın Konstitusiyasına, qanunlarına, fərmanlara, qərarlara zidd olmamalıdır.

Azərbaycan Respublikasının dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi: qanunvericilik, icra hakimiyyəti və məhkəmə hakimiyyəti əsasında təşkil edilir.

Azərbaycan Respublikasının dövlət quruluşu onun dövlət bütövlüyünə, dövlət hakimiyyətinin vahidliyinə və səlahiyyətlərinə, AR-nın dövlət hakimiyyəti orqanları ilə AR-sı subyektlərinin dövlət hakimiyyətləri orqanları arasında səlahiyyətlərin bölünməsinə əsaslanır.

Azərbaycan Respublikasının hər bir subyektlərinin öz büdcələri vardır. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən büdcələrin məcmusu büdcə sistemini təşkil edir.

Azərbaycan Respublikasının büdcə sistemi unitar dövlətin büdcə quruluşunun prinsiplərinə əsaslanır.

AR-nın büdcə sistemi AR-nın maliyyə sisteminin tərkib hissəsidir.

Büdcə sistemi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi AR-sı Konstitusiyasından, Büdcə sistemi haqqında qanundan, hər bir büdcə ili üzrə qəbul edilən dövlət büdcəsi haqqında qanundan, digər qanunlardan və normativ hüquqi aktlardan, habelə AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Azərbaycan Respublikasının büdcə sistemi AR-sı Dövlət büdcəsindən, Naxçıvan MR-nın büdcəsindən və yerli hakimiyyət orqanlarının, o cümlədən bələdiyyələrin büdcələrindən ibarətdir. Yerli hakimiyyət orqanlarının büdcələri respublika tabeliyində olan rayonların, şəhərlərin büdcələri və onlann müvafiq bələdiyyələrinin büdcələrindən ibarətdir. Aşağı özünüidarəetmə orqanlarının büdcələri öz gəlir və xərcləri ilə yuxan büdcə səviyyələrinə daxil olur. Bu büdcələr arasında münasibətlər, onların formalaşması prinsipləri, tərtibi prosesi, təsdiqi, icrası və icrasına nəzarət «Büdcə sistemi haqqmda» AR-nın qanunu ilə tənzimlənir.




Azərbaycan Respublikasının dövlət büdcəsi,büdcədənkənar dövlət fondları işlənib hazırlanır və qanun formasında təsdiq olunur. Muxtar respublika və yerli büdcələr işlənib hazırlanır, yerli özünü idarəetməorqanlarının hüquqi aktları və yaxud bələdiyyə

qurumlarının nizamnaməsi ilə müəyyən edilmiş qaydada (bir qayda olaraq yerli büdcələr yerli səlahiyyətli orqanların- bələdiyyə qurumlarının deputatları şurasında) təsdiq edilir.İstənilən səviyyəli büdcələr bir maliyyə ilinə tərtib edilir ki, bu da təqvim ilinə uyğun gəlir və 1 yanvardan 31 dekabradək olan dövrü əhatə edir.Hər bir büdcə müvafiq dövlət və ya yerli hakimiyyət orqanları üçün maliyyə bazası xidmətini yerinə yetirir. Beləliklə, Azərbaycan Respublikasının büdcə sistemi:

AR-nın dövlət büdcəsindən;

Naxçıvan MR-nın büdcəsindən və yerli büdcələrdən ibarətdir.

Hüquqi münasibətlərin başlıca əlaməti onlann iştirakçılarının hüquq və vəzifələrinin olmasıdır. Büdcə sistemi haqqında AR-nın qanunu hər bir büdcə səviyyəsinin hüquqi formasını təsbid edir.

## BÜDCƏLƏRİN TƏNZİMLƏNMƏSİ METODLARI VƏ TARAZLIQ ALƏTLƏRİ.

Büdcə sistemi tərkibinə daxil olan hər bir büdcənin xərclərinin təmin olunması üçün müvafiq gəlirləri olmalıdır. Büdcələrin gəlirləri xüsusi və tənzimləyici gəlirlərdən ibarətdir. Büdcələrin xüsusi gəlirləri- Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq gəlir növlərinin tam və ya qismən müvafiq büdcələrə təhkim edilməsidir. Bunlara müvafiq büdcələrə və büdcədənkənar dövlət fondlanna /\zərbaycan Respublikasının qanunvericiliyi əsasmda təhkim olunmuş vergilər, gəlirlər, normativ aktlarla müəyyən edilmiş vergi olmayan gəlirlər və eyni zamanda əvəzsiz ödənişlər aiddir.

**"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsində nəzərdə tutulduğu kimi, yerli sosial-iqtisadi inkişaf proqramlarını yerli büdcə gəlirləri hesabına maliyyələşdirmək mümkün olmadıqda yerli büdcə kəsirini ödəmək üçün dövlət büdcəsinin imkanlarını nəzərə alaraq əlavə gəlir mənbələrinin müəyyən edilməsi və ya dövlət büdcəsindən dotasiya və subvensiya ayrılması mümkündür.**

**Hər bir büdcənin xərcinin təmin olunması üçün müvafiq gəlirləri olmalıdır. Büdcələrin gəlirləri xüsusi və tənzimləyici gəlirlərdən ibarətdir.**

***Büdcələrin xüsusi gəlirləri*** **- Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq gəlir növlərinin tam və ya qismən müvafiq büdcələrə təhkim edilməsidir.**

**Bu müvafiq büdcələrə, dövlət büdcədənkənar fondlarına Azərbaycan Respublikasının qanunvericiliyi əsasında təhkim olunmuş vergilər, gəlirlər, normativ aktlarla müəyyən edilmiş vergi olmayan gəlirlər, eyni zamanda əvəzsiz ödənişlər aiddir.**

**Büdcənin gəlirlərinə həmçinin qarşılıqlı hesablaşmalar üzrə əvəzsiz köçürmələr hesaba götürülə bilər. Qarşılıqlı hesablaşmalar üzrə Azərbaycan Respublikası vergi və büdcə qanunvericiliklərində dəyişikliklər aparılması ilə əlaqədar Azərbaycan Respublikası büdcə sisteminin müxtəlif səviyyəli büdcələri arasında vəsaitlərin verilməsi, büdcə haqqında qanunda nəzərdə tutulmayan xərclərin maliyyələşməsi üzrə səlahiyyətlərin və ya gəlirlərin verilməsi üzrə əməliyyatlar başa düşülür.**

**Xüsusi gəlirlər yerli büdcələrin gəlirlərinin bir hissəsini təşkil edirlər ( ■ ). Yerli icra orqanlarının (bələdiyyələrin) üzərinə düşən funksiyaların yerinə yetirilməsi, bölgənin sosial-iqtisadi inkişafını, yerli büdcələrin tarazlaşdırılmasını həyata keçirmək üçün onlara dövlət büdcəsi (həmçinin Naxçıvan Muxtar Respublikasının büdcəsi) tərəfindən büdcə tənzimlənməsi qaydasında tənzimləyici gəlirlər verilir.**

***Büdcələrin tənzimləyici gəlirləri*** **- bu dövlət büdcəsinin yerli (bələdiyyə) büdcələrə növbəti maliyyə ili üçün və ya uzun müddətə normativlər əsasında təyin olunmuş maliyyə vəsaitidir.**

***Dotasiya*** **- dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə, onların gəlir və xərclərini tənzimləmək məqsədilə əvəzsiz verilən maliyyə vəsaitidir.**

***Subvensiya*** **– məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaitidir.**

***Subsidiya*** **– dövlət büdcəsindən digər Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə büdcələrə və hüquqi şəxslərə əvəzsiz verilən maliyyə vəsaitidir.**

***Büdcə ssudası*** **– dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə, yerli büdcələrdən bələdiyyə təşkilatlarına qaytarılmaq şərti ilə il ərzində müəyyən müddətə verilən maliyyə vəsaitidir.**

Qrant - daxili və xarici mənbələr hesabına (o cümlədən, mərkəzi hökümət tərəfindən büdcə sisteminin digər həlqələrinə) əvəzsiz verilən məqsədli maliyyə yardımıdır. Fiskal fede-ralizm konsepsiyasında qrant anlayışı transfert məhvumu- nun sinonimi kimi işlədilir. Bir sıra iqtisadi ədəbiyyatlarda subsidiya və dotasiya da qrant və ya transfertlər kimi təqdim edilir. Buna görə də qrant dedikdə həm transfert və həm də subsidiya nəzərdə tutulur.

Qrantlann aşağıdakı formaları mövcuddur:

- mərkəzi hökümətin büdcəsindən (federal və ya respublika) regional büdcəyə verilən ödənişlər:
- regional (və ya əyalət) büdcədən bələdiyyə büdcəsinə köçürülən ödənişlər;
- bir regional büdcədən digərinə üfüqi tarazlığın təmin edilməsi məqsədilə köçürülən ödənişlər;
- mərkəzi hökümətin büdcəsindən bələdiyyə büdcəsinə (onların gəlir və xərclərinin tənzimləmək məqsədi ilə) köçürülən ödənişlər;

. beynəlxalq təşkilatlar tərəfindən (çox hallarda) mərkəzi hökümətin büdcəsinə köçürülən ödənişlər

Büdcə tarazlığının təmin edilməsində vergilərdən bir alət kimi istifadə edilməsi dedikdə vergi və tədiyələrin faiz ifadəsində məbləğinin (və ya bir hissəsinin) büdcə sisteminin bir həlqəsindən digərinə verilməsi və ya hər hansı bir vergi növünün hər hansı büdcə həlqəsinin gəlir mənbəyinə çevrilməsi nəzərdə tutulur. Bu təcrübə bir çox ölkələrdə (misal üçün AFR- da) tətbiq olunur. Büdcə sisteminin həlqələri arasında bölüşdürülən və əsas tarazlıq aləti kimi qəbul edilən tədiyyə növü qismində bir çox hallarda fiziki şəxslərin gəlir vergisi çıxış edir. Müxtəlif dövrdə və ölkələrdə yerli vergilərin struk- torunda bu verginin payı İsveçdə 99.6 faiz, Finlandiyada 87 faiz, Danimarkada 93 faiz, Norveçdə 82 faiz, İsveçrədə 77 faiz, İslandiyada isə 73.4 faiz təşkil etmişdir.

Qeyd etmək lazımdır ki, Respublikamızda yerli büdcələrə maliyyə yardımı kimi verilən dotasiya, subvensiya, subsidiya və qrant üsulları kifayət qədər

təkmilləşdirilməyib.

## BÜDCƏ HÜQUQU VƏ BÜDCƏ PROSESİNDƏ ONUN ROLU. BÜDCƏ SİSTEMİNİN HÜQUQİ ƏSASLARI.

Dövlət və bələdiyyə büdcələrinin formalaşması prosesində və onlann istifadəsi ilə əlaqədar geniş münasibətlər sistemi əmələ gəlir ki, onlar da xüsusi normalarla nizama salmır. Belə normaların məcmusu maliyyə hüququnun xüsusi bölməsini - büdcə hüququnu əmələ gətirir. Mahiyyət etibarilə büdcə hüququ maliyyə hüququnun xüsusi bölməsinin on böyük hissəsidir. Büdcə hüququ - büdcə quruculuğu münasibətlərini, büdcə prosesini, yəni gəlir mənbələrinin təyin edilməsi, gəlirlərin və xərclərin büdcə sistemi arasında bölüşdürülməsi, büdcənin tərtibi, müzakirəsi, təsdiqi və icrası qaydalarını, habelə büdcənin icrasının təşkili sahəsində bütün dövlət hakimiyyəti orqanlarının səlahiyyətlərini müəyyən edən hüquqi normaların məcmusudur. Azərbaycan Respublikasının büdcə hüququnun əsasını Azərbaycan Respublikasının Konstitutsiyası, “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının qanunu, digər qanunlar və normativ hüququ aktlar təşkil edir.

Büdcə hüququ maliyyə hüququnun tərkib hissəsi olmaqla, dövlətin mərkəzləşdirilmiş pul vəsaiti fondunun yaradılması və istifadə edilməsi ilə əlaqədar olan ayn-ayrı dövlət orqanları arasında əmələ gələn təşkilati-maliyyə münasibətlərini tənzimləyir.

Dövlət hakimiyyət orqanlanın səlahiyyətləri praktiki olaraq respublika səviyyəsində onlann büdcə hüquqlarında ifadə olunur. Büdcə hüququnun dövlət hakimiyyət orqanına mənsubiyyəti (aid olması) onlara xüsusi xarakter verir və Azərbaycan Respublikası subyektlərindən və inzibati ərazi vahidlərinin hüquqlanndan fərqləndirir.

Azərbaycan Respublikasının büdcə hüququ maliyyə bazası yaratmağı təmin edir ki, bunsuz da dövlətin müstəqilliyinə nail olmaq mümkün deyildir.Büdcə hüququ maliyyə hüququnun başlıca bölməsi olmaqla, bir neçə maliyyə-hüquq institutlarını özündə birləşdirir.

Büdcə hüququ maliyyə hüququnun digər bölmə və institutlarının tənzim etdiyi münasibətlərin məzmununa görə, yəni predmetinə görə fərqlənir. Büdcə hüququnun predmetinə daxil olan münasibətlər digər maliyyə hüquq münasibətlərindən bir neçə səciyyəvi cəhətlərinə görə fərqlənir. Əvvəla, büdcə hüququ münasibətləri dövlət və bələdiyyə büdcələrinin tərtibi prosesində yaranır. Digər cəhətdən isə büdcə hüququ münasibətləri bir ildən artıq davam etmir, yəni büdcə bir maliyyə ilində qüvvədə olur. Yeni maliyyə ili üçün yeni büdcə layihəsi tərtib olunur. Beləliklə, büdcə hüququ münasibətləri müvəqqəti (yəni bir il) xarakter daşısa da, hər növbəti ildə onlar yenidən yaranır.

Büdcə hüququ münasibətlərin digər münasibətlərdən fərqləndirən bir cəhəti də həmin münasibətlərdə iştirak edən subyektlərin fəaliyyət dairəsidir.

Büdcə hüququ münasibətlərinin subyektlərini aşağıdakı qaydada qruplaşdırmaq olar;

1) dövlət və inzibati -ərazi vahidlikləri: Azərbaycan Respublikası, Naxçıvan MR-sı, şəhərlər, rayonlar, kəndlər və s.;

2) dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları; dövlət hakimiyyətinin

nümayəndələri və idarəçilik orqanları, yerli özünüidarəetmə orqanları (bələdiyyə)

Dövlət bütün cəmiyyətin, o cümlədən onun bütün üzvlərinin rəsmi nümayəndəsidir. Dövlət siyasi hakimiyyətin təşkilinin xüsusi formasını ifadə edir ki, bu məqsədlə də o, xüsusi aparata (mexanizmə), yəni cəmiyyəti idarəetmə sisteminə malikdir.

Bütün əhali üçün məcburi olan qanun və qaydaların verilməsi dövlətin qanunvericilik orqanları tərəfindən həyata keçirilir. Dövlət ilə qanun qırılmaz surətdə əlaqədardır. Belə ki, dövlət hüquq normalarını müəyyən edir. Hüquq normaları isə dövlət tərəfindən müəyyən edilmiş və ya sank- siyalaşdırılmış hüquqi xarakterli davranış qaydalarıdır. Hüquq normalarının məcmu məhz hüquq deməkdir. Hüquq öz dövlətinə xidmət göstərir.

Əgər hadisəyə tarixi aspektdən yanaşılsa, onda təsdiqləmək olar ki, dövlət ilə birlikdə hakim sinifin iradəsini ifadə kimi hüquq da meydana gəlmişdir.

Azərbaycan Respublikasının dövlət quruluşu ölkənin bütövlüyünə və dövlət hakimiyyətinin vahidliyinə əsaslanır.

AR-nın Konstitusiyasında göstərilir ki, Azərbaycan Respublikasının qanunları bütün ölkə ərazisində məcburidir. Naxçıvan Muxtar Respublikası AR-nın tərkibində muxtar dövlətdir və AR-nın ayrılmaz tərkib hissəsidir. Naxçıvan Muxtar Respublikasının öz konstitusiyası və qanunvericiliyi vardır,

Azərbaycan Respublikasında Naxçıvan Muxtar Respublikası və yerli öüzünidaretmə orqanları öz səlahiyyət sferasına malikdirlər. Əgər Naxçıvan Muxtar Respublikası və yerli öüzünidarəetmə orqanları tərəfindən qəbul edilmiş normativ aktlar onların səlahiyyətlərindən kənara çıxarsa, onlar hüquqi qüvvəyə malik deyildir.

Azərbaycan Respublikasının büdcə sisteminin fəaliyyətinin hüquqi əsaslarını Azərbaycan Respublikasının Konstilutsiyası, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, büdcə qanunvericilikləri, Azərbaycan Respublikası Prezidentinin fərmanları və habelə digər normativ-hüquqi aktlar təşkil edir.

AR-nın Hökümətinin normativ hüquqi aktları da büdcə münasibətlərini tənzimləyir. AR-nın subyektlərinin dövlət hakimiyyət orqanlan və yerli özünüidarəetmə orqanlan öz səlahiyyətləri çərçivəsində büdcə münasibətlərini tənzimləyən normativ hüquqi aktlar qəbul edirlər.

Əgər Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə AR-nın büdcə qanunvericiliyində nəzərdə tutulduğundan fərqli qayda nəzərdə tutulmuşdursa, onda beynəlxalq müqavilənin qaydalan tətbiq edilir.

Büdcə sisteminin səviyyəsi haqqında qərar müvafiq maliyyə ilinə qəbul edilir və imzalandığı andan qüvvəyə minir. Bu zaman büdcə hüquqi aktları adətən hüquqi xassəsinə görə təsnifləşdirilir və aşağıdakılar fərqləndirilir.

Normativ aktlar- maliyyə münasibətlərinin iştirakçıları üçün ümumi qayda müəyyən edir, müəyyən növ maliyyə münasibətlərini tənzimləyir, müvafiq növ maliyyə münasibətlərinin konkret olaməllorini müəyyən edir.

Maliyyə-plan aktları - xeyli hissəsi büdcə hüququ üçün xarakterik olmaqla, öz tərkibinə AR-nm dövlət büdcəsini, digər maliyyə orqanlarının və kredit idarələrinin maliyyə planlarını, sahə nazirlikləri və idarələrinin maliyyə planlarım, idarə və təşkilatların smetalarım daxil edir.

Büdcə tənzimləməsi praktiki olaraq dövlətin bütün fəaliyyət sferasını əhatə edir. Lakin yaddan çıxartmaq olmaz ki, AR-nın Konstitusiyası - ölkənin əsas qanunu

dövlət hakimiyyətinin, qanunvericilik və icraedici orqanlarının səlahiyyətlərini və AR-da bu orqanların birgə apardıqları fəaliyyətin predmetini müəyyən edir.

## BÜDCƏ HÜQUQUNUN SUBYEKTLƏRİ VƏ NORMALARI

Mərkəzləşdirilmiş pul vəsaitləri fondlannın və bələdiyyə maliyyə resurslarının yaradılması, bölüşdürülməsi və istifadəsi üzrə fəaliyyətin gedişində büdcə prosesinin subyektləri arasında müəyyən büdcə hüququ münasibətləri yaranır.

AR-nın büdcə hüququ subyektləri aşağıdakılardan ibarətdir:

1. Dövlət, Naxçıvan MR-sı və inzibati ərazi vahidləri, o cümlədən:

Azərbaycan Respublikası bütövlükdə;

Naxçıvan Muxtar Respublikası;

Yerli inzibati-ərazi vahidləri (şəhərlər, rayonlar, qəsəbə və kəndlər);

2.Dövlət və yerli hakimiyyət orqanları, o cümlədən dövlət hakimiyyətinin qanunverici və yerli özünüidarəetmə orqanlarıicra hakimiyyəti orqanlan və yerli ozünüidarəetmə orqanları.

Büdcə hüququnun subyektləri öz hüquq və vəzifələrini icra edərkən büdcə hüququ münasibətlərinə girirlər. Büdcə -hüququ münasibətlərinə aiddir:

- büdcələrin və büdcədənkənar dövlət fondlannın gəlirlərinin formalaşması və xərclərin həyata keçirilməsi prosesində hüquq münasibətləri subyektləri arasında yaranan münasibətlər;
- büdcə layihələrinin tərtibi, təsdiqi, icrası və onların icrasına nəzarət prosesində büdcə hüququ münasibətlərinin subyektləri arasında yaranan münasibətlər.

Dövlət hakimiyyət orqanlan arasında büdcə hüququ münasibətlərinin real (daha çox əhəmiyyətli) subyektlərinə aiddir:

Dövlət hakimiyyəti və idarə orqanları büdcə hüququ subyektləri sırasına aiddir ki, onların da büdcə prosesində iştarakı mütləqdir. Dövlət hakimiyyəti və idarəetmə orqanları dairəsinə dövlət səviyyəsində qanunvericilik (nümayəndəli) və icra hakimiyyəti orqanlan daxildir.

İcra hakimiyyəti orqanlan sırasında həm ümumi səlahiyyətli orqanlar və həmdə xüsusi (sahəvi) səlahiyyətli orqanlar- nazirlik, dövlət komitələri, departamentlər, idarələr, maliyyə-kredit sistemi orqanlan çıxış edir.

Azərbaycan Respublikası subyektlərinin dövlət hakimiyyət orqanları.

Azərbaycan Respublikasının Prezidenti.

Azərbaycan Respublikasının Hökuməti.

Büdcə vəsaiti istehlakçılarının təşkilatları.

Büdcə münasibətlərinin öz xüsusiyyətləri vardır. Əsas xüsusiyyət ondan ibarətdir ki, onlar mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının yaradılması, bölüşdürülməsi və istifadəsi prosesində əmələ gəlir. Digər xüsusiyyət ondan ibarətdir ki, bu münasibətlər dövlət ilə təşkilatlar arasında yaranır, yəni tərəflərdən biri kimi dövlət və yaxud onun səlahiyyətləri orqanı, ya da hakimiyyət səlahiyyəti ilə təmin edilmiş yerli özünüidarəetmə orqanı çıxış edir. Büdcə sisteminin bütün səviyyələrinin gəlirlərinin və xərclərinin formalaşması prosesində büdcə münasibətləri subyektləri arasında yaranan büdcə münasibətləri qanunvericiliklə tənzimlənir.

«Büdcə sistemi haqqında» AR-nın qanunu ilə büdcə prosesi iştirakçılarının hüquqi statusu, AR-sı büdcə qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi qaydası və şərtlərinin hüquqi əsaslan müəyyən edilir.Öz məzmununa görə büdcə hüququ normaları maddi və prosessual normalara bölünür.

Maddi büdcə normaları Azərbaycanın Respublikasının büdcə sisteminin strukturunu, büdcələrin gəlir və xərclərinin siyahısını, onların müxtəlif büdcə səviyyələri arasında bölgüsünü müəyyən edir.

Prosessual büdcə normaları dövlət büdcəsinin və yerli büdcələrin tərtibi, baxılması, təsdiqi, icrası və habelə büdcənin icrası haqqında hesabatın tərtibi və təsdiqi qaydalarını tənzimləyir.

Büdcə hüququ normalarını özündə əks etdirən normativ aktların məcmusu büdcə qanunvericiliyini əmələ gətirir.

AR-nın büdcə qanunvericiliyi AR-nın Konstitusiyasından, «Büdcə sistemi haqqında» AR-nın qanunundan, müvafiq büdcə illəri üzrə qəbul edilən dövlət büdcəsi haqqında qanundan, digər qanunlardan və normativ hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Büdcə haqqında qanun maliyyə ilinə tərtib edilir, müzakirə edilir, təsdiqlənir və imza edildiyi gündən qüvvəyə minir. Büdcə haqqında qanun qəbul edilib və imzalandıqdan sonra müəyyən edilmiş qaydada mətbuatda dərc edilməlidir. Büdcə münasibətlərində AR-nın hökumətinin AR-sı subyektlərinin və yerli özünüidarəetmə orqanlarının normativ aktları xüsusi əhəmiyyət kəsb edir.

## BÜDCƏ HÜQUQU MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİNDƏ YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARININ SƏLAHİYYƏTLƏRİ.

Azərbaycan Respublikasının büdcə sistemində yerli özünüidarəetmə orqanları və yerli büdcələr əhəmiyyətli rol oynayır. Yerli özünüidarəetməni bələdiyyələr həyata keçirir. Bələdiyyələr öz səlahiyyətlərini həyata keçirərkən yerli özünüidarəetmə orqanlarının büdcə münasibətləri AR-nın Konstitutsiyası, “Büdcə sistemi haqqında” AR-nın qanunu. AR-nın Vergi Məcəlləsi, “Bələdiyyələrin statusu haqqında” AR-nın qanunu, “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” AR-nın qanunu, dövlət hakimiyyət orqanlannın və yerli özünüidarəetmə orqanlarının normativ hüquqi aktları ilə tənzimlənir.

Azərbaycan Respublikasının Konstitutsiyasına M4-cü maddəsinə müvafiq olaraq yerli özünüidarəetmə yerli əhəmiyyətli məsələlərin müstəqil həll edilməsini təmin edir. Yerli özünüidarəetmə orqanlan bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və sərəncam vermək səlahiyyətinə malikdir. Yerli özünüidarəetmə orqanlan bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermək məsələlərinin müstəqil həll edilməsini təmin etmə səlahiyyətinə malikdir. Yerli özünüidarəetmə şəhər, kənd, qəsəbə, və digər ərazilərdə tarixi və digər yerli ənənələri nəzərə almaqla həyata keçirilir.

Yerli özünüidarəetmə orqanlan bələdiyyə mülkiyyətini müstəqil idarə edir, yerli büdcələri formalaşdınr, təsdiq və icra edir. Onun icrasına dair qaydaları, yerli vergiləri və ödənişləri müəyyən edir, yerli sosial müdafiə, iqtisadi və sosial inkişaf proqramlann qəbul və icra edir, habelə yerli əhəmiyyətli digər məsələləri həll edir.

Azərbaycan Respublikasının Konstitutsiyasının 144-cü maddəsinə uyğun olaraq

bələdiyyələrə qanunvericilik və icra hakimiyyətlərı tərəfindən əlavə səlahiyyətlər də verilə bilər. Bu səlahiyyətlərin həyala keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti də ayrılır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər. Yerli özünüidarəetmə orqanları yerli büdcə gəlirlərinin formalaşması və büdcə vəsaitinə sərəncam vermək barədə müstəsna hüquqa malikdirlər (maddə 33). Azərbaycan Respublikasının Vergi Məcəlləsi vergi sisteminə daxil olan vergilərin qruplar üzrə təyinatını - dövlət vergiləri, muxtar respublika vergiləri və yerli vergilər (bələdiyyə vergiləri) müəyyən edir. Burada eyni zamanda yerli vergilərin tərkibinə daxil olan vergilər, rüsumlar və ödənişlər do qeyd edilir. Bununla yanaşı yerli özünüidarəetmə orqanları aşağıdakı məsələləri həll etmək səlahiyyətinə malikdirlər.

-AR-nın Vergi Məcəlləsi ilə yerli özünüidarəetmə orqanlarına verilmiş hüquq çərçivəsində yerli vergilər və ödənişləri müəyyən etmək, habelə həmin vergi və ödənişlərə görə faiz hesablamaq və sanksiyalar tətbiq etmək;

-yerli vergi və ödənişlərin hesablanması. ödənilməsi və güzəştlərin tətbiqi qaydalarının müəyyən edilməsi;

-qanunvericiliklə nəzərdə tutulmuş qaydada bələdiyyələr yerli əhəmiyyətli tədbirlərin maliyyələşdirilməsi üçün könüllü birdəfəlik ödənişlər barədə qərar qəbul edilməsi.

Yerli özünüidarəetmə orqanların aşağıdakılara hüquqları vardır;

-AR-nın vergi qanunvericiliyinə uyğun olaraq yerli özünüidarəetmə orqanlarının müəyyən etdiyi limit daxilində vergi krediti vermək,

-vergilərin və digər məcburi ödənişlərin ödənilməsi üzrə möhlət vernək.

«Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının qanunu büdcə gəlirlərinin formalaşması və dövlətin məqsədli büdcə fondları vəsaitlərinin formalaşması sahəsində dövlət icra orqanlarının səlahiyyətlərini tənzimləyir. Gəlirlərin yeni növlərinin müəyyən edilməsi, onların ləğvi və ya dəyişdirilməsi Azərbaycan Respublikasının vergi qanunvericiliyində dəyişiklik edilməsi yolu ilə mümkündür. Dövlət icra hakimiyyəti orqanları həmçinin yeni qeyri - vergi gəlir növləridə tətbiq, ləğv və ya dəyişdirə bilər. Bu zaman Vergi Məcəlləsində müvafiq düzəlişlər edilməli və büdcə qanunvericiliyi toplusu olan Büdcə Məcəlləsi qəbul edilməlidir. Vergi Məcəlləsi dövlət büdcəsinə, Naxçıvan MR-sı büdcəsinə və yerli büdcələrə vergilər hesabına daxil olacaq gəlirləri müəyyənləşdirmişdir. Burada büdcə sisteminin müxtəlif səviyyəli büdcələri arasında gəlirlərin və xərclərin bölgüsünün tənzimləməsi də nəzərdə tutulur.

«Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsi məqsədli büdcə fondlarının yaradılmasını müəyyən edir. Məqsədli büdcə fondları dövlət büdcəsinin, Naxçıvan MR-nm büdcəsinin və yerli büdcələrin tərkib hissəsi kimi yaradıla bilər. Bu fondlar müstəqil mədaxil mənbələrinə malik ola bilərlər. Məqsədli büdcə fondları üzrə daxilolmalar və xərclər, büdcələrin gəlir və xərc hissəsində aynca göstərilməklə müvafiq maliyyə əmə- liyyatlan xəzinədarlıq vasitəsilə həyata keçirilir. Məqsədli büdcə fondlarının vəsaitləri təyinatı üzrə istifadə olunmalıdır və onlann başqa məqsədlər üçün xərclənməsi yolverilməzdir. İstifadə olunmamış vəsait növbəti büdcə ilində onların gəlirinə daxil edilir və büdcəyə silinə bilməz.

Azərbaycan Respublikasının qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrin büdcə fəaliyyətinə müdaxiləsinə Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla yol verilmir. Bələdiyyələr yerli

büdcələrinin maliyyə ilinin sonuna əmələ gəlmiş sərbəst qalıqlarına müstəqil sərəncam verir. Bələdiyyələr yerli büdcələrini müstəqil olaraq tərtib, müzakirə, təsdiq, icra və onun icrasına nəzarət edir. Yerli büdcələrin gəlirləri xüsusi gəlirlər, dövlət və ərazi vergi və rüsumlarından ayrılan gəlirlər hesabına formalaşdırılır. Yerli büdcələrə bələdiyyə mülkiyyətində olan əmlakın istifadəsindən əldə olunan gəlirlər və yerli özünüidarəetmə orqanlarının, onların tabeliyində olan büdcə idarələrinin göstərdikləri pullu xidmətlərdən əldə olunan gəlirlər tam şəkildə daxil edilir. Bələdiyyə mülkiyyətində olan əmlakın satışından əldə olunan gəlirlər də tam şəkildə yerli büdcələrə daxil edilir.

Azərbaycan Respublikası büdcə sisteminin bütün səviyyəli büdcələrinin xərclərinin formalaşdırılması vahid metodoloji əsaslara, minimum büdcə təminatı və Azərbaycan Respublikasının Hökuməti tərəfindən müəyyən edilən dövlət xidməti göstərilməsi üzrə maliyyə məsrəfləri normativlərinə əsaslanır. Naxçıvan MR-sı dövlət hakimiyyəti orqanlan, yerli özünüidarəetmə orqanlan onlarda olan maliyyə imkanlarının uçotu ilə dövlət və bələdiyyə xidmətlərinin göstərilməsinə maliyyə məsrəfləri normativlərinin artırılması hüququna malikdirlər.

## BÜDCƏ TƏSNİFATI, ONUN TƏRKİBİ VƏ TƏYİNATI.

Büdcələrin gəlirlərinin fonmaları və xərc istiqamətləri müxtəlifdir. Büdcələrin icrası haqqında hesabat tərtib etmək, büdcə sisteminin bütün səviyyələrinin göstəricilərinin müqayisəsini təmin etmək üçün Azərbaycan Respublikasının Vahid büdcə təsnifatından istifadə edilir.

«Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının 2002-ci il 2 iyul tarixli qanununun 4 -cü maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti 2004-cü il 6 oktyabr tarixli 149 Nö-li qərarı ilə Azərbaycan Respublikasının«Vahid büdcə təsnifatı»nı təsdiq elmişdir.

Azərbaycan Respublikasının büdcə təsnifatı Azərbaycan Respublikası büdcə sisteminin bütün səviyyəli büdcələrinin gəlir və xərclərinin qruplaşdırılmasıdır. Burada habelə büdcə kəsirinin maliyyələşdirilməsi mənbələri də öz əksini tapmışdır.

Azərbaycan Respublikasının büdcə təsnifatının tərkibi aşağıdakılardan ibarətdir:

Büdcə gəlirlərinin təsnifatı;

Büdcə xərclərinin funksional təsnifatı;

Büdcə xərclərinin iqtisadi təsnifatı

Büdcə xərclərinin inzibati (təşkilati) təsnifatı.

Büdcə xərclərinin təhlili, proqramlaşdırılması və ümumiyyətlə tədqiqi baxımdan onların təsnifləşdirilməsi zəruridir. Büdcə xərclərinin təsnİfləşdirilməsində məqsəd büdcə siyasətinin formalaşması, sahələrarası resursların bölüşdürülməsi, iqtisadi, o cümlədən fıskal siyasətin şərhi və həmçinin, fiskal göstəricilərin təhlilindən ibarətdir. Təsnifat göstəricilərin müxtəlif meyarlar əsasında qruplaşdırılması deməkdir. Xərclərin qruplaşdırmasına müxtəlif dövrdə bir çox alimlər cəhd göstərmiş və tarixi hadisələrin gedişatına uyğun müəyyən qruplaşdırmalar aparmışdılar.




Müasir dövrdə büdcə xərclərinin təsnifləşdirilməsi hər bir dövlətin qanunvericiliyinə uyğun olaraq hazırlanır. Bir çox dövlətlərdə (o cümlədən Rusiya Federasiyası, Qazaxıstan, Azərbaycan Respublikası və s.) qəbul edilmiş təsnifata əsasən büdcə xərcləri funksional, iqtisadi və təşkilatı (inzibati) təsnifata uyğun qruplaşdırılır.

Azərbaycan Respublikasının büdcə təsnifatının əsas funksiyaları aşağıdakılardan ibarətdir;

1.Büdcə planlaşdırılmasının təmin olunması;

2.Büdcə sisteminin vahidliyinin təmin olunması;

3.Gəlir və xərclər haqqında məlumatın düzgün olması;

4.Gəlir və xərclər haqqında məlumatların müqayisəli təminatı.

Büdcə təsnifatı elə qurulmuşdur ki, göstəricilərin qruplaşdırılması büdcə xərcləri, daxili və xarici borclar və s. haqqında təsəvvür yaradır.

Büdcə təsnifatı ölkənin bütün büdcə idarə və təşkilatları üçün məcburidir.

AR-ı dövlət büdcəsi xərclərinin iqtisadi təsnifatı AR-ı büdcə sisteminin bütün səviyyələrinin xərclərinin onların iqtisadi məzmununa görə - cari iqtisadi xərclər, əsaslı xəclər, kredit verilməsi, faiz ödənilməsi, əsas kapitala sərmayə qoyuluşu, mal alınması, subsidiya verilməsi üzrə qrup- laşdınlması deməkdir.

Büdcə kəsirinin maliyyələşdirmə mənbəyinin təsnifatı büdcə kəsirini örtmək üçün cəlb edilmiş borc vəsaitlərinin qruplaşdırılmasını ifadə edir.

Dövlət büdcəsi xərclərinin inzibati (təşkilali) təsnifatı büdcə vəsaitlərinin onun sərəncamçılan üzrə bölüşdürülməsini əks etdirən qruplaşdırmadır. Bu siyahı, o cümlədən, dövlət komitələrinin, nazirliklərin, idarələrin saxlanılmasına, yəni vəsaitin ünvanlı ayrılması- növbəti büdcə ili üçün AR-nın dövlət büdcəsi haqqında qanunda təsdiq olunur.

AR-nın qanunvericiliyi büdcə təsnifatının və onun müxtəlif hissələrinin tətbiqinin həddini müəyyən edir.

Belə ki, AR-nın dövlət büdcəsi gəlirlərinin, xərclərin funksional, iqtisadi və

inzibati təsnifatı vahiddir və bütün səviyyəli büdcələrin tərtibi, təsdiqi və icrası zamanı istifadə edilir. Bu halda AR-nın subyektləri və yerli özünüidarəetmə orqanları AR-nm büdcə təsnifatının quruluşunu və vahidliyini pozmadan müvafiq büdcələri təsdiq edərkən büdcə təsnifatını da dəqiqləşdirmək hüququna malikdir.

AR-sı dövlət büdcəsinin inzibati (təşkilati) təsnifatı, dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsinin xarici mənbələrinin təsnifatı, AR-nın xarici dövlət borclarının növlərinin təsnifatı yalnız dövlət büdcəsinin tərtibi, təsdiqi və icrası zamanı istifadə edilir.




## BÜDCƏ GƏLİRLƏRİNİN TƏSNİFATI

Büdcə gəlirlərinin təsnifatı iqtisadi mahiyyət və hüquqi aspektlərinə görə gəlirlərin qruplaşdırılmasıdır.

Başqa sözlə, büdcə gəlirlərinin təsnifatı büdcə sisteminə daxil olan bütün büdcə səviyyələrinin gəlirlərinin qruplaşdırılmasını özündə əks etdirir. O, büdcə sisteminin bütün büdcə səviyyələrinin gəlirlərinin formalaşması mənbələrini müəyyən edən AR-nın qanunvericilik aktlarına əsaslanır.

Bütövlükdə, büdcələrin gəlirlərinin tərkibində aşağıdakı əsas qruplar fərqləndirilir: Vergi gəlirləri, qeyri vergi gəlirləri, əvəzsiz köçürmələr və məqsədli büdcə fondlarının gəlirləri. Başqa sözlə büdcə təsnifatına əsasən Azərbaycan Respublikasının büdcə gəlirləri 4 kateqoriyadan ibarətdir:

-vergilərdən daxilolmalar;
-sosial ayırmalar;
-qrantlar;
-digər gəlirlər.

Gəlirlər qrupu gəlirlər maddəsindən ibarətdir ki, bu da konkret növ gəlirlərin mənbəyi və əldə edilməsi üsuluna görə, o cümlədən, vergi gəlirləri vergi növləri üzrə, qeyri-vergi gəlirləri isə gəlir növləri üzrə konkret növ gəlirləri birləşdirir. Habelə vergilər birbaşa və dolayı vergilərə bölünür.

Həmçinin, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergilər dövlət vergilərinə, muxtar respublika vergilərinə və yerli vergilərə (bələdiyyə) bölünür. Vergilər vergi bazasına görə do fərqlənir. Bu halda vergi baza.sı kimi məcmu gəlirlər, əmək haqqı, mal dövriyyəsinin həcmi, mülkiyyət, idxal olunan mallar və s. çıxış edir.




Vergi və qeyri-vergi gəlirlərindən başqa büdcədə dövlət və bələdiyyə mülkiyyətində olan əmlakların istifadəsindən gəlirlər də nəzərə tutulur.

Büdcədə eyni zamanda dövlət və bələdiyyə əmlakının özəlləşdirilməsi prosesindən əldə edilən vəsaitlər də nəzərə alınır və köçürülür. Bununla yanaşı büdcəyə habelə cərimələr də daxil edilir. Bir qayda olaraq qanunvericiliyə və məhkəmə qərarlarına uyğun olaraq müsadirə məbləği məcburi qaydada büdcəyə köçürülür.

Vergi gəlirləri xüsusi və tənzimləyici gəlirlərə bölünür.

Büdcənin xüsusi gəlirləri - qanunvericiliklə daimi, tam vo ya qismən müvafiq büdcələrə təhkim edilmiş gəlirlərdir.

Büdcələrə edilən maliyyə yardımları büdcənin xüsusi gəlirlərinə aid deyil.

Büdcənin tənzimləyici gəlirləri- müəyyən müddətə ayınna normativinə uyğun olaraq müvafiq büdcələrin digər büdcə sisteminin xüsusi gəlirlərindən ayırma formasında aldıqları gəlir növüdür.

Normativ ayırmalar öz xüsusi gəlirlərinin bir hissəsini digər büdcələrə verən büdcə sistemi səviyyəsinin büdcə qanunu ilə müəyyən edilir.

Azərbaycan Respublikasının büdcə gəlirləri vergilərdən daxil olmalar, vergi olmayan gəlirlər, rəsmi qaydada alınan vəsaitlər (transfertlər) bölmələrində qruplaşdırılır.

AR-nın büdcə gəlirlərinin losnifalının kodlaşmış mənzərəsi isə büdcə təsnifatının

aşağıdakı kimi təsvir olunduğunu əks etdirir. Bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarım- maddə.

Büdcə gəlirlərinin kodlaşmış sxemində gəlirlər bölmə, köməkçi bölmə, paraqraf, maddə və yanmmaddə üzrə şifro- lənir. Lakin burada maddə və yanmmaddə şifrəsi gərək olmur. Məsələn, fiziki şəxslərdən gəlir vergisi 1 bölmədə, 1.1. köməkçi bölmədə, 1 paraqrafda əksini tapır. Aksiz vergisi 1 bölmədə, 5.2. köməkçi bölmədə qərar tutur; mal, iş və xidmətlərə görə aksiz I paraqrafda, idxal mallarına görə aksiz isə 2 paraqrafda öz yerini tutur. Hüquqi şəxslərdən torpaq vergisi I bölmədə, 4.1. köməkçi bölmədə, 1 paraqrafda qeyd edilir. Büdcədənkənar dövlət fondlarının gəlirləri 2 bölmədə, 12 yarım bölmədə, 10 paraqrafda əks olunur.

## BÜDCƏ XƏRCLƏRİNİN TƏSNİFATI

Büdcə xərcləri funksional, iqtisadi və təşkilati (inzibati) əlamətlər üzrə təsnifləşdirilir.

Azərbaycan Respublikası büdcə xərclərinin funksional təsnifatı büdcə sisteminə daxil olan büdcələrin funksiyalar üzrə xərclərinin qruplaşdınimasmdan ibarətdir. O, büdcə vəsaitlərinin dövlətin əsas funksiyalarının yerinə yetirilməsinə, o cümlədən AR-nın dövlət hakimiyyəti orqanlarının, təşkilatlarının və onun subyektlərinin hakimiyyət orqanlarının qəbul etdikləri qəbul etdikləri normativ hüquqi aktlarının vo digər səviyyəli hakimiyyət orqanlarına verilmiş ayrı-ayrı səlahiyyətlərin həyata keçirilməsinin maliyyələşdirilməsinə büdcə vəsaitlərinin istiqamətlərini əks etdirir. Burada AR-sı Prezident Administrasiyasının, Prezidentin, Milli Məclisin, AR-sı Hökumətinin, prokurorluq və məhkəmə orqanlarının saxlanılması, elm xərcləri və s. ayrıca göstərilir.

Funksional təsnifat bölmə, köməkçi bölmə vo paraqraf səviyyəsində nəzərdə tutulur.

Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin funksional təsnifatının birinci səviyyəsinə dövlətin funksiyalarının yerinə yetirilməsinə büdcə vəsaitlərinin xərclənməsini müəyyən edən bölmə aiddir.




Dövlət büdcəsinin məqsədli xərc maddələrinin təsnifatı Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin funksional təsnifatının səviyyəsini təşkil edir və Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin funksional təsnifatının yarımbölmələrinin hüdudunda dövlət büdcəsi vəsaitlərinin Baş sərəncamçısının konkret fəaliyyət istiqamətləri üzrə maliyyələşdirilməsini əks etdirir.

Büdcə xərcləri növlərinin təsnifatı Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin funksional təsnifatının dördüncü səviyyəsini təşkil edir və büdcə xərclərinin məqsədli maddələr üzrə maliyyələşməsinin islqamətlərini təfsilatı ilə göstərir.

Məsələn, «Mənzil və kommunal təsərrüfatı xərcləri» (Bölmə 8) bölməsi aşağıdakı köməkçi bölmələri əhatə edir:

. mənzil təsərüffatı (Bölmə 8,1.0.);
. kommunal təsərrüfatı (Bölmə 8.2.0);
. su təsərüffatı (Bölmə 8.3.0);
. mənzil və kommunalla bağlı digər xidmətlər (Bölmə 8.5.0) və s.

Azərbaycan Respublikasının subyektləri və yerli özünüidarəetmə orqanları AR-nın büdcə təsnifatı obyektlərində məqsədli maddələrdə vo xərc növlərində büdcə təsnifatının ümumi prisiplərini və vahidliyini pozmadan daha da konkretləşdirmə apara bilər.




Azərbaycan Respublikası büdcə xərclərinin iqtisadi təsnifatı büdcə sisteminin bütün büdcə səviyyələrinin xərclərinin iqtisadi məzmununa görə qruplaşdırılır. Büdcə xərclərinin iqtisadi təsnifatı əvəzsiz və ya qaytarılmaq şərti ilə büdcələr tərəfindən aparılan ödənişlərdən ibarətdir Büdcə xərclərinin iqtisadi təsnifatı bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddələrdən ibarətdir. İqtisadi təsnifat 2 və 3 rəqəmləri ilə başlanılmaqla 6 rəqəmli koddan ibarətdir. Kodun birinci rəqəmi iqtisadi təsnifatı, ikinci rəqəmi bölməni, üçüncü rəqəm köməkçi bölməni, dördüncü rəqəm paraqrafı, beşinci rəqəm maddəni, altıncı rəqəm isə yarım maddəni göstərir. Azərbaycan Respublikası yerli büdcələrinin təsnifatı ayrıca qruplaşdırılır və müvafiq büdcələrindən vəsait alanlar tərəfindən müəyyən edilir və büdcə vəsaitlərinin bölüşdürülməsi birbaşa həyata keçirilir.

Büdcə xərclərinin inzibati təsnifatı təşkilatlar üzrə büdcə xərclərinin bölgüsünü özündə əks etdirir. İnzibati təsnifat daha çox dövlət qurumlarının konkret tədbirlərin həyata keçirilməsi ilə bağlı mosuliyyəyinin müəyyənləşdirilməsi üçün zəruridirDövlət büdcəsi xərclərinin yuxarıda sadalanan uc təsnifatından başqa büdcə proqramları təsnifatından da istifadə edilir. Proqram təsnifatı daha çox funksional təsnifata oxşasada sahələr və istiqamətlər üzrə hazırlanan proqram və alt-proqramların vahid sistemə gətirilərək qruplaşdırılması məqsədilə istifadə edilir.

## DÖVLƏT BÜDCƏSİ GƏLİRLƏRİNİN STRUKTURU VƏ ƏSAS MƏNBƏLƏRİ.

Büdcənin gəlirləri dedikdə, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq əvəzi ödənilmədən və qaytarılmamaq şərti ilə dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının sərəncamına daxil olan pul vəsaiti başa düşülür. Dövlət büdcəsinin gəlirləri dövlətin maliyyə bazasını təşkil edir.

Büdcənin gəlirləri dövlətin pul vəsaiti fondunun fonna- laşması prosesində dövlətlə müəssisə, təşkilat və əhali arasında iqtisadi münasibətləri ifadə edir.

Dövlət büdcəsinin gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

- Azərbaycan Respublikasının büdcə sisteminin digər səviyyəsinə tənzimləyici gəlirlər növündə verilən vergi daxilolmaları istisna olunmaqla dövlət büdcəsinin
- xüsusi vergi gəlirləri;
- xüsusi qeyri-vergi gəlirləri;
- keçən ilin sonuna vəsait qalığı;
- sair gəlirlər.

Vergi gəlirlərinə aiddir:

Azərbaycan Respublikasının vergi qanunvericiliyi ilə nəzərdə tutulmuş dövlət vergi və rüsumları, penya və cərimələr;

. gömrük rüsumları və gömrük yığımları;

. dövlət rüsumları.

Qeyri -vergi gəlirlərinə aiddir:

- dövlət mülkiyyətində olan əmlakdan istifadəyə görə gəlirlər;
- dövlət mülkiyyətində olan əmlakın satışından gəlirlər;
- müvafiq dövlət hakimiyyəti orqanlarının göstərdiyi pullu xidmətdən gəlirlər;
- vətəndaşlıq, o cümlədən cərimə, müsadirə, kompensasiya.

Dövlət büdcəsinə daxil olan vergilərin nisbəti hər il üçün “Dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilir. Qanun vergi daxilolmalarını gəlirlərin büdcə tənzimləməsi qaydasında müxtəlif səviyyəli büdcələr arasında bölgüsü nisbətini (payını) müəyyən edir. Bu kimi bölgü növbəti büdcə ilinə dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilir. Vergi gəlirlərindən əlavə dövlət büdcəsinin icrası prosesində onun gəlirlərinə Azərbaycan Respublikasının digər səviyyəli büdcələrindən vəsait də daxil ola bilər. Dövlət büdcəsinin gəlirlərinə eyni zamanda keçmiş ilin axırlarına qalmış vəsait də köçürülür. Dövlət büdcəsinin gəlirlərində növbəli büdcə ilinə dövlət büdcəsi haqqında qanunla müəyyən edilmiş dərxodə ayrıca sələrlə məqsədli dövlət büdcə fondlarının gəlirləri nəzərdə tutulur. Həmçinin ləğv edilmiş məqsədli fondların vəsaitlərinin qalığı dövlət büdcəsinin gəlirlərinə daxil edilir. Dövlət büdcəsinin gəlirləri dövlətin maliyyə ehtiyatlarının təxminən 2/3-ni özündə əks etdirirdi.

Bazar iqtisadiyyatı şəraitində büdcənin gəlirlər bölümünün mahiyyəti bir qədər dəyişmiş və daha geniş münasibətlər sistemi olan bazar münasibətlərinin əsas mcyarlanndan olan çoxmülkiyyətçiliyi və sahibkarlığın inkişafını özündə əks etdirməyə başlanmışdır. Bazar iqtisadiyyatının inkişafı ilə əlaqədar olaraq, respublikamızda büdcənin idarə edilməsi sahəsində mühüm dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər hər şeydən əvvəl büdcənin gəlirlərinin geniş sisteminin yaradılması ilə bağlıdır. Bu mənada büdcə təsnifatında da gəlirlər mənbəyinə və onların alınmasına görə qruplaşdırılır, **B**üdcə gəlirlərinin ÜDM-un strukturuna və sahə quruluşuna uyğun artmasına, potensial gəlirlərin büdcəyə daxil olması əmsalının əhəmiyyətli dərəcədə yüklənməsinə, vergilərin sadələşdirilməsinə, vergi dərəcələrinin azaldılmasına, vergi ədalətliliyinin təmin olunmasına, vergilərin yığılmasını təmin edən orqanların strukturunun təkmilləşdirilməsinə, vergi nəzarətinin səmərəliliyinin artınimasma, sahibkarlıq fəaliyyətinin genişləndirilməsini təmin edən vergi mühitinin yaradılmasına və

s. bu kimi tədbirlərin həyata keçirilməsinə nail olunmuşdur.

Vergi gəlirlərinə vergi qanunvericiliyi ilə nəzərdə tutulmuş dövlət vergiləri və rusumlan, muxtar respublika vergiləri və rüsumları, yerli vergi və rüsumları, habelə cərimə və sanksiyalar üzrə daxilolmalar aiddir.

## BÜDCƏ XƏRCLƏRİNİN STRUKTURU, ƏSAS İSTİQAMƏTLƏRİ VƏ MALİYYƏLƏŞDİRİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİ.

Dövlət büdcəsinin xərcləri ictimai faydalıdır. İctimai təkrar istehsalın və iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi, müdafiə qüdrətinin möhkəmləndirilməsi dövlət büdcəsinin çoxtərəfliliyini şərtləndirir. Lakin büdcə xərclərinin müxtəlifliyi ilə yanaşı bu xərclər vahid məqsədə- dövlət tələbatını maliyyə resurslan ilə təmin etməyə xidmət edir.

Dövlət büdcəsinin xərcləri anlayışı ilə büdcə maliyyələşdirilməsi məhvumu qırılmaz surətdə bağlıdır. Büdcə maliyyələşdirilməsi vəsaitin nazirliklərə, komitələrə, birliklərə, müəssisələrə, təşkilatlara və idarələrə plan üzrə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinə verilməsini nəzərdə tutur.

Büdcə maliyyələşdirilməsinin əsasında qaylarılmamazlıq, büdcə xərclərinin məqsədli xarakterdə olması və vəsaitlərin xərclərinin həyata keçirilməsinin smeta qaydasına əsasən verilməsi və s. prinsiplər durur.

Büdcə xərcləri büdcədən maliyyələşdirmə vasitəsilə həyata keçirilir və büdcədən maliyyələşdirmə isə müəyyən prinsiplərə əsaslanır.

<u>Büdcədən malıyyələşdirilmənin prinsipləri -</u> büdcə xərclərinin maliyyələşdirilməsinin səmərəli təşkilində əhəmiyyətli rol oynayır. Bu prinsiplərə aşağıdakılar aiddir:

- minimum məsrəflərlə maksimum səmərə əldə elmək;

Büdcə vəsaiti yalnız onların istifadəsindən daha çox nəticə əldə edilməsi təmin edildiyi şəraitdə sərf edilməlidir. Bu səmərə bir tərəfdən ölkənin inkişafının, müxtəlif sosial iqtisadi vəzifələrin həllində və digər tərəfdən isə büdcə vəsaitinin istifadə edilməsi nəticəsində gəlirlərin artması hesabına pul vəsaitinin büdcəyə əks axınında ifadə oluna bilər.

-büdcə vəsaitinin istifadənin məqsədli xarakteri;

Hüquqi şəxs yalnız təsdiq edilmiş büdcə əsasında, həm də əvvəlcədən müəyyən edilmiş məqsədə büdcədən vəsait ala bilər. Bu prinsipə ciddi əməl edilməsi büdcə vəsaitinin qeyri- səmərəli istifadə edilməsinin qarşısını alır.

-büdcə vəsaitinin əvvəl buraxılmış ləxsisalın istifadəsini nəzərə almaqla istehsal və digər göstəricilərin yerinə yetirilməsi müqabilində verilməsi;

Büdcə maliyyələşdirilməsinin iqtisadi göstəricilərin yerinə yetirilməsindən asılılığı maliyyə orqanlarına müəssisə, təşkilat və idarələrin fəaliyyətinə təsirli və səmərəli nəzarəti həyata keçirməyə imkan verir.

-büdcə vəsaitinin qaytarılmamazlığı;

Vəsaitin verilməsi onun dövlət büdcəsinə qaytarılması şərtini nəzərdə tutmur.

-büdcə təxsisatının ödənişsiz olması;

Büdcə vəsaitinin ayrılması dövlətə hər hansı faiz şəklində və ya digər növ ödəniş formasında gəlir nəzərdə tutmur.

<u>Büdcədən maliyyələşdirmənin forma və metodları</u>. Büdcə təxsisatı təcrübəsində

büdcə maliyyələşdirilməsinin iki metodundan istifadə edilir:

-«netto büdcə» sistemi üzrə maliyyələşdirmə. Pul vəsaitinin təqdim edilməsinin bu üsulu onunla xarakterizə edilir ki, bu zaman büdcə təxsisatı təsdiq edilmiş büdcədə

nəzərdə tutulmuş məqsədlərə ayrılır.

-«brutto büdcə» sistemi üzrə maliyyələşdirmə. Bu sistem tamamilə büdcə maliyyələşdirilməsində olan müəssisə və təşkilatlar üçün tətbiq edilir.Bu halda büdcə təxsisatı bütün xərclərə, yəni istər cari və istərsə də büdcə təşkilatının fəaliyyətinin genişləndirilməsilə əlaqədar məqsədlərə ayrılır.

Pul vəsaitinin təqdim edilməsinin göstərilən üsulu aşağıdakı büdcə maliyyələşdirilməsi forması ilə həyata keçirilir;

-büdcə idarələrinin saxlanılmasına təxsisat;

-dövlət və bələdiyyə kontraktları üzrə fiziki və hüquqi şəxslərin yerinə yetirdikləri əmtəələrin, işin və xidmətin ödənilməsinə vəsait;

-əhaliyə transfertlər;

-fiziki və hüquqi şəxslərə subvensiya və subsidiya;

-aşağı büdcələrə və büdcədənkənar dövlət fondlanna dotasiya, subvensiya və subsidiya;

-fəaliyyətdə olan və ya yeni yaradılmış hüquqi şəxslərin nizamnamə kapitalına investisiya.

Büdcə maliyyələşdirilməsinin mühüm elementi büdcədən vəsaitin verilməsi metodlarıdır. Bu metodların köməyilə maliyyə orqanları tərəfindən büdcədə nəzərdə tutulmuş tədbirlər pul vəsaiti ilə təmin edilir, maliyyə resurslarının bölüşdürülməsində mövcud proporsiyalar tənzimlənir.

Büdcə vəsaiti nazirliklərə, idarə və müəssisələrə istehsalın genişləndirilməsilə əlaqədar xərclərə (kapital qoyuluşu), sadə təkrar istehsalın təmin edilməsinə (subsidiya, dotasiya və transfertlər), əməliyyat və s. məqsədlərə verilir.

İqtisadiyyatın maliyyələşdirilməsinə xərclər nazirlik, idarə və müəssisələr üzrə planlaşdırılır və eyni zamanda məqsədli təyinatı üzrə nəzərdə tutulur.

Sosial ehtiyaclara xərclər dövlətin sosial funksiyalarının yerinə yetirilməsi ilə əlaqədardır. Bu xərclər aşağıdakı əsas qruplara bölünür: təhsilə;

mədəniyyət, incəsənət və kinoya; kütləvi informasiya vasitələrinə; səhiyyə və bədən tərbiyəsinə; sosial siyasətə və s.

Sosial ehtiyaclara xərclər smeta planlaşdırılması prinsipi əsasında müəyyən edilir. Bu xərclər konkret tədbirlər və məsrəflərin növləri üzrə maliyyələşdirilir. Xərclərin həcmi qeyri-istehsal sferası idarələrində hazırlanmış smetalar və maliyyə orqanları tərfindən tərtib edilmiş təxsisatın hesablamaları əsasında aparılmış əməliyyatlar və s. metodlarla müəyyən edilir. Büdcə normalan. Büdcə vəsaitlərinin xərclənməsinin əsas prinsipi- onların təyinatı və vaxtına görə ciddi nizama salınmasıdır. Büdcə təşkilatı pul vəsaitini smetada nəzərdə tutulmayan məq.sədlərə istifadə etməyə hüququ yoxdur.

Xərc smetası - büdcə təşkilatlarının maliyyə planıdır. Smeta büdcə təşkilatlarının saxlanması üçün büdcədən ayrılan vəsaitin illik məbləğini, rüblük bölgüsünü və məqsədli təyinatını əks etdirir.

Büdcə təşkilatlarının smetasında aşağıdakılar əks olunur:

- təşkilatın rekvezitləri (onun adı, maliyyələşdirən büdcə, smetam təsdiq edən şəxsin imzası, təşkilatın möhürü və s.);
- işçilərin əməyinin ödənilməsi;

- büdcədənkənar dövlət fondlarına ayırmalar;
- əhaliyə Iransfertlər (pensiya,təqaüd, yardım, kompensasiya və s.);
- ezamiyyə və işçilərə digər kompensasiya ödənişləri;
- əmtəə, iş və xidmətlərin ödənilməsi.

Büdcə təşkilatlarının xərc smetasının tərtibi aşağıdakı məsələlərin həllinə şərait yaradır:

-büdcə təşkilatlarının dövlət maliyyələşdirilməsi ilə təmin edilməsi;

-nəzərdə tutulan xərclərin təhlili və vəsaitlərin istifadəsi haqqında hesabatlar;

-vəsaitin səmərəli və qənaətlə xərclənməsinə nəzarət.

Bunu da qeyd edmək lazımdır ki, sosial ehtiyaclara xərclərin bir hissəsi başqa qaydada maliyyələşdirilir.

Xərc smetasının aşağıdakı növləri vardır:

- fərdi smeta - ayrı-ayrı təşkilatlar və ya tədbirlər üçün tərtib olunur;
- ümumi smeta — eyni tipli təşkilatlar və ya tədbirlər üçün tərtib olunur;
- mərkəzləşdirilmiş smeta—mərkəzləşdirmiş qaydada hayata keçirilən tədbirlərin maliyyələşdirilməsi üçün nazirlik və Baş idarələr tərəfindən tərtib olunur (avadanlıqlann alınması, tikinti-təmir İşləri və s.);
- icmal smeta—burada həm fərdi və həm də mərkəzləşdirilmiş tədbirlərin smetaları birləşdirilir, yəni bütövlükdə nazirlik və ya Baş idarələrin icmal smetası tərtib olunur.

Yuxarıda göstərilən xərclər müəyyən edilmiş xərc normalan üzrə həyata keçirilir və bu xərc normalarından büdcə təşkilatlarının smetalarının tərtibi zamanı istifadə olunur.

Xərc normaları mütləq (hökümət və ya yerli icra orqanları tərəfindən tətbiq olunur) və ya fakültativ (nazirlik, Baş idarələr tərəfindən tətbiq olunur) ola bilər.

Büdcə normaları fərdi (ayrı-ayrı xərc növləri üzrə), birləşdirilmiş və va iriləşdirilmiş məcmu xərclər və ya təşkilatlar üzrə ola bilər. Müasir şəraitdə sosial sferada təşkilatların bütün növ xərclərini əhatə edən iriləşdirilmiş xərc norması böyük əhəmiyyət kəsb edir. Belə normalardan istifadə edilməsi bu təşkilatların işini son nəticələrə (uşaqların öyrədilməsi, mütəxəssislərin hazırlanması, xəstələrə yardım göstərilməsi) nail olmasına istiqamətləndirməyə imkan verir.

## BÜDCƏLƏRİN TARAZLAŞDIRILMASI, BÜDCƏ KƏSİRİ VƏ BÜDCƏ PROFİSİTİ.

Büdcənin tərtibi, təsdiqi və icrası prosesində dövlət gəlirləri və xərclərinin tarazlaşdirilmasi təmin edilməlidir. Bu mənada dövlət büdcəsi gəlirləri ilə xərcləri arasında tarazlığın pozulmasından asılı olaraq büdcə defisiti (kəsiri) və büdcə profisiti (artıqlığı) yaranır.

Büdcə tarazİaşdırılmış və yaxud tarazlaşdırılmamış ola bilər. Büdcənin tarazlaşdırılması hallarında onun gəlirləri xərclərinə bərabər olur. Büdcə tarazlaşdırılmadığı hallarda iki variant mümkün ola bilər:

1. Büdcənin gəlirlərinin onun xərclərindən artıqlığı və ya profısit;

2. Büdcənin xərclərinin onun gəlirlərindən artıqlığı və ya defısit (kəsirli)

Profisit. Büdcənin ilkin (birinci) və sonrakı (ikinci) profisiti fərqləndirilir. Büdcənin ilkin profisiti dedikdə dövlət borclarına xidmət xərcləri nəzərə alınmadan gəlirlərin büdcə xərclərindən artıqlığı başa düşülür. Büdcənin ikinci profisiti dövlət borcuna xidmət xərcləri nəzərə alınmaqla büdcə gəlirlərinin büdcə xərclərindən artıqlığı başa düşülür. Büdcə profisiti -büdcənin gəlirlərinin onun xərclərindən, büdcə kəsiri isə büdcənin xərclərinin onun gəlirlərindən artıqlığı deməkdir.

Büdcə kəsiri və büdcə profisili yaradılmış dəyərin büdcə vasitəsilə yenidən bölgüsü prosesində məcmu pul münasibətlərini ifadə edən mürəkkəb maliyyə kateqoriyasıdır.

Büdcənin gəlir və xərcləri arasında tarazlığa nail olmaq məqsədi ilə büdcə kəsiri və ya profisiti idarəetmə obyekti olur. Büdcə kəsirinin idarəedilməsi dedikdə onun mümkün həddinin və maliyyələşdirilməsinin optimal mənbəyinin müəyyən edilməsi başa düşülür.

Büdcənin icrası onun xərclərinin gəlirlər hesabına tam ödənilməsini nəzərdə tutur. Büdcə qanunvericiliyinə əsasən bütün səviyyəli büdcələr əvvəlcə profisitsiz tərtib və təsdiq edilməlidir. Əgər büdcənin tərtibi və təsdiqi prosesində gəlirlərin xərclərdən artıqlığı aşkar edilərsə, büdcə təsdiq olunanadək profisitin aşağıdakı ardıcıllıqla ixtisar edilməsi həyata keçirilməlidir;

1.dövlət və bələdiyyə mülkiyyətinin,dövlət ehtiyatlarının satışından gəlirlərin cəlb edilməsi ixtisar edilməli;

2. dövlət ehtiyatlarının satışından gəlirlərin cəlb edilməsi azaldılmalı;

3. büdcə vəsaitlərinin borc öhdəliklərinin əlavə ödənilməsinə yönəldilməsinə yenidən baxılmalı;

4.büdcənin xərclərini, o cümlədən gəlirlərin bir hissəsinin digər səviyyəli büdcələrə verilməsi hesabına artırılmalı.

Əgər bu tədbirləri hansısa səbəb üzündən həyata keçirmək məqsədəuyğun deyilsə, vergi qanunvericiliyində dəyişiklik və əlavələr etməklə büdcənin vergi gəlirlərini azaltmaq lazımdır.

Defisit. Büdcənin kassa kəsiri planlaşdırılır. Büdcənin planlaşdırılmış kəsiri növbəti büdcə ilinə dövlət büdcəsi ilə eyni vaxtda təsdiq edilir. Büdcənin kassa kəsiri isə büdcənin icrası prosesində yaranır.

Büdcə kəsirini müxtəlif mənbələrdən, o cümlədən daxili və xarici borcalmalar hesabına maliyyələşdinnək olar.

Büdcə kəsiri - fəvqəlada dərəcəyə və ya müstəsna hadisəyə aid olmayan adi hadisədir. Praktiki olaraq hər bir müasir dövlətdə büdcə kəsirli olur. Əhəmiyyətlisi büdcənin kəsirli olması deyil, onun keyfiyyətində, yəni kəsirin həcmi və yaranma səbəblərindədir.

Artıq deyildiyi kimi büdcənin planlaşdu-ıimış kəsirinə müəyyən məhdudiyyətlər qoyulur, lakin büdcənin kassa icrası gedişində faktiki göstəricilər planlaşdırılmış göstəricilərdən kənarlaşa bilər.

Büdcənin kəsirinin səbəbləri iqtisadiyyata həm mənfi və həm də müsbət təsir göstərə bilər. Belə ki, büdcənin kəsiri böhran hadisəsi ilə və yaxud fövqəlada halların başlanması ilə (müharibə, fəlakət, bədbəxt hadisə, epidemiya və s.) yarana bilər. Lakin

büdcə xərclərinin gəlirlərdən artıqlığı dövlət investisiyasının həyata keçirilməsi ilə də əlaqədar ola bilər.

Kəsrin maliyyələşdirilməsi ənənəvi olaraq xarici və daxili borclanma, habelə özəlləşmədən və büdcə təşkilatlarının xidmətlərindən daxilolmalar hesabına nəzərdə tutulur. Dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi mənbəyindən pulun emissiyasından istifadə edilməsi 2006-cı ildən etibarən qadağan edilmişdir.

Hər bir büdcə səviyyəsində qanunvericiliklə büdcə kəsirinin maliyyələşdirilməsinin öz mənbələri müəyyən edilir. Dünya təcrübəsində dövlət büdcəsmin kəsiri müxtəlif mənbələr, o cümlədən daxili və xarici mənbələr hesabına maliyyələşdirilir.

Büdcə kəsirinin maliyyələşdirilməsinin daxili mənbələrinə aiddir:

-kredit təşkilatlanndan milli valyutada alınmış kreditlər;

-daxili bazarda milli valyutada yerləşdirilmiş dövlət istiqrazları;

-büdcə sisteminin digər büdcə səviyyələrindən alınmış büdcə ssudaları;

-dövlət əmlakının özəlləşdirilməsindən daxil olan vəsaitlər.

Daxili bazar büdcə kəsirinin maliyyələşdirilməsinin daha əlverişli mənbəyidir, ona görə kı, dövlət qiymətli kağızlarının gəlirlərinin aşağı səviyyədə saxlanılması onun öz vaxtında ödənilməsinə imkan verir. Bundan başqa əvvəllərdə buraxılmış istiqrazlann ödənilməsi üçün nəzərdə tutulmuş vəsaitləri yeni yerləşdirilmiş istiqrazların köməyi ilə cəlb etmək olar.

Büdcə kəsirinin maliyyələşdirilməsinin xarici mənbələrinə aiddir:

1) xarici dövlətlərin hökümətlərinin, bankların, firmaların və habelə beynəlxalq iqtisadi təşkilatların xarici valyutada təqdim etdikləri kreditlər;

2) xarici bazarda dövlət qiymətli kağızların yerləşdirilməsi vasitəsi ilə həyata keçirilən xarici valyutada dövlət istiqrazları.

Büdcə kəsirinin xarici mənbələrdən maliyyələşdirilməsi kifayət qədər münasibdir, lakin sonralar o iqtisadiyyat üçün ağır yükə çevrilə bilər. Cəlb edilmiş kreditlər üzrə ödənişlərin qrafiki bir qayda olaraq olduqca sərtdir, vaxtı keçmiş ödənişlərə əlavə faiz hesablanır.

Əgər büdcə kəsirlə təsdiq edilirsə, onda eyni zamanda onun daxili və xarici ınaliyyələşdimıə mənbələri do təsdiq edilməlidir.

Dövlət eyni zamanda büdcə kəsirinin maliyyələşdirilməsinin digər üsullarına da, o cümlədən əlavə pul emissiyalarına və ya büdcə sferası qarşısında öz öhdəliklərini yerinə yetirməməyə səy göstərə bilər.

Azərbaycan Respublikasının dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi sahəsində siyasətin əsas vəzifəsi xarici borclanmanın həcmini ardıcıl olaraq ixtisar etməklə, onun qeyri-inflyasiya mənbələri hesabına örtülməsi xəttini davam etdirməkdir.

Büdcə kəsirinin azaldılması və yaxud aradan qaldırılmasına yönəldilən siyasət həyata keçirilərkən aşağıdakı prinsiplərə əməl edilməlidir:

-büdcə kəsirinə yalnız mənfi hadisə kimi baxmaq düzgün deyildir, ona görə ki, sosial-iqtisadi inkişafın ayrı- ayrı mərhələsində o, özünü tam doğrulda bilər;

- büdcə kəsirinin mümkün kəmiyyəti ÜDM-ın həcminin2-3%-ni təşkil etməli;

- büdcə kəsirinin maliyyələşdirilməsi mənbəyi kimi istər xarici və istərsə də daxili bazarlardan borcalmadan istifadə edilməlidir.

- emissiyaya büdcə kəsirinin maliyyələşdirilməsinin inflyasiya mənbəyi kimi baxılmalıdır;

- büdcənin xronoloji kəsirinin aradan qaldırılması üçün bütövlükdə iqtisadiyyatı sağlamlaşdırmaq lazımdır.

Yuxarıda sadalanan prinsiplər büdcə kəsirinin azaldılması və maliyyələşdirilməsi üzrə tədbirlər hazırlanarkən nəzərə alınmalıdır. Büdcəni qısa müddət ərzində istənilən vasitələrlə balanslaşdırmaq tamamilə özünü doğrultmur. Bir qayda olaraq bu halda büdcə gəlirləri ilə xərclərinin tarazlığına nail olmağın yeganə vasitəsi büdcə xərclərinin ixtisar ola bilər.

Büdcə kəsirinin ixtisarı üzrə daha səmərəli tədbirlər aşağıdakılardan ibarətdir.

ɐinvestisiyanın rentabelliyinin yüksəldilməsi məqsədilə dövlət vəsaitinin investisiyalaşdırılması istiqamətini dəyişdirmək;

- ictimai istehsalı stimullaşdırmaq məqsədilə maliyyə güzəştlərindən və sanksiyalarından daha geniş istifadə etmək.

Əhalinin, müəssisənin, təşkilatların və digər investorların vəsaitlərini cəlb etmək hesabına qeyri-bank sektorunda büdcə borclanmasının payının artırılması və əhali üçün dövlət qiymətli kağızlar dairəsinin genişləndirilməsi zəruridir.

## BƏLƏDİYYƏ QURUMLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFINDA YERLİ BÜDCƏLƏRİN ROLU

Yerli büdcələrin regionların sosial-iqtisadi inkişafında rolundan danışarkən inflyasiya, maliyyə sisteminin pozulması yerli büdcəyə öz rolunun tam yerinə yetirilməsinə imkan vermir. Bu kimi neqativ hal -amillərə büdcə kəsirini aid elmək olar.

Regionların sosial-iqtisadi inkişafında yerli büdcənin rolu müəyyən şərt daxilində daha da arta bilər. Bu kimi şərt yerli özünüidarəetməni həyata keçirən orqana gəlirlərin formalaşması və onların istifadəsi üzrə geniş səlahiyyətlər verilməsindən ibarətdir. Yerli büdcə - bələdiyyə qurumlarının büdcəsidir, onun tərtibi, təsdiqi və icrasını yerli özünüidarəetmə orqanları həyata keçirir. Yerli büdcələrin gəlirləri - AR-nın qanunvericiliyinə uyğun olaraq yerli özünüidarəetmə orqanlannm sərəncamına əvəzsiz olaraq daxil olan pu! vəsaitidir. Yerli büdcənin vəsaitləri bələdiyyə mülkiyyətinin obyektidir. Bu büdcə vəsaitinin mülkiyyətçisini müəyyən edir. Deməli, büdcə vəsaitinin mülkiyyətçisi yerli hakimiyyət orqanı deyil, inzibati ərazi qurumudur. Hakimiyyət və idarəetmə orqanları öz səlahiyyətləri çərçivəsində bu mülkiyyətə sərəncamı həyata keçirirlər.

“Bələdiyyələrin statusu haqqında» AR-sı qanununa əsasən (Maddə 33) bələdiyyə mülkiyyətinin tərkibinə yerli vergilər və ödənişlər hesabına formalaşan yerli büdcələrin vəsaitlərindən əlavə büdcədənkənar fondlar və yerli özünüidarəetmə orqanlarına mənsub dövlət və bələdiyyə qiymətli kağızları, bələdiyyə mülkiyyətində olan sair pul vəsaiti də daxildir.

«Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» AR-nın qanunu bələdiyyələrin maliyyəsinin formalaşması və istifadəsi prinsipləri, yerli büdcə prosesinin əsasları və bu sahədə bələdiyyələrin səlahiyyətləri və onların müvafiq icra orqanları ilə qarşılıqlı münasibətlərini ifadə edir.

Yerli (bələdiyyə) maliyyənin formalaşması qaydaları AR-nın Konstitusiyası ilə, «Büdcə sistemi haqqında», «Bə- lədiyyələrin maliyyəsinin əsaslan haqqında», «Bələdiyyələrin statusu haqqında», «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında»

AR-nın qanunları və digər normativ-huquqi aktlarla müəyyən edilir.

Yerli büdcələrin formalaşması və istifadəsi müstəqillik, dövlət maliyyə yardımı, maliyyə resurslarının formalaşması və istifadəsinin aşkarlığı prinsiplərinə əsaslanır.Yerli büdcələrinin formalaşdırılması, tərtibi, müzakirəsi, təsdiqi və icrasına nəzarət «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu əsasında həyata keçirilir. Yerli büdcələrin iqtisadi mahiyyəti onun təyinatında öz əksini tapır və aşağıdakı funksiyaları həyata keçirir:

-yerli (bələdiyyə) orqanlarının fəaliyyətinin maliyyə təminatı olan pul fondlarının yaradılması;

- pul fondlarının təsərrüfatın müxtəlif sahələri arasında bölgüsü və istifadə olunması;

- yerli orqanların tabeçiliyində olan müəssisə, idarə və təşkilatların maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət.

Yerli büdcənin tərtibi və icrası prosesində büdcə sisteminin qanunvericiliklə müəyyən edilmiş ümumi prinsiplərindən və Azərbaycan Respublikasında tətbiq olunan büdcə təsnifatından istifadə olunur. Yerli büdcələrin yerinə yetirilməsinə xidmət göstərmək və işi səmərəli təşkil etmək üçün bələdiyyələr dövlət xəzinədarlığının ərazi (rayon) orqanları ilə müqavilələr bağlayaraq, yaxud da yerli büdcənin vəsaitləri hesabına bələdiyyə xəzinədarlığı yarada bilərlər.

Yerli büdcənin müstəqilliyi öz daxili mənbələrinin olması və bələdiyyənin yerli büdcə vəsaitinə sərəncam vermək barədə müstəsna hüququ ilə təmin edilir. Azərbaycan Respublikasının qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrin büdcə fəaliyyətinə müdaxiləsinə, Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla yol verilmir. Bələdiyyə (yerli) büdcənin maliyyə ilinin sonuna əmələ gəlmiş sərbəst qalıqlarına müstəqil sərəncam verir.

Qanunvericilik yerli büdcələrin möhkəmlənməsi üçün dövlətin üzərinə aşağıdakı əlavə məsuliyyətləri qoyur.

1) investisiya və pul-kredit siyasəti əsasında istehsal sferasının inkişafına şərait yaratmaq;

2) yerli sosial-iqtisadi inkişaf proqramlarını yerli büdcə gəlirləri hesabına maliyyələşdirmək mümkün olmadıqda yerli büdcə kəsirini ödəmək üçün dövlət büdcəsinin imkanlarını nəzərə alaraq əlavə gəlir mənbələrini müəyyən etmək və ya dövlət büdcəsindən dotasiya və subvensiya ayırmaq;

3) yerli büdcələrin gəlirlərinin azalması və xərclərinin artması baş verdikdə uyğun azalma və ya artma məbləğlərinin müvafiq qərar qəbul edən orqan tərəfindən konpensasiya edilməsi.